**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN İKİNCİ XARİCİ DİL FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

**(V-XI siniflər)**

**Bakı – 2013**

İkinci Xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır:

**Sədr:** Dilarə İsmayılova - ADU, pedaqogika üzrə elmlər doktoru, professor. **Üzvlər:** Fəridə Hüseynova – **koordinator**, Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin böyük elmi işçisi, Sahib Məcidov - Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin Xarici dillərin təlimi bölməsinin müdiri, Gülbəniz Camalova Allahverdiyeva - ADU-nun dosenti, pedagika üzrə fəlsəfə doktoru, Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin aparıcı elmi işçisi, Aidə Qasımova - Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin elmi işçisi, Aynurə Mahmudova - Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin elmi işçisi, Mikayıl Seyidov - Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin elmi işçisi, Cahan Həsənova - Təhsil Problemləri İnstitutu, Kurikulum Mərkəzinin böyük elmi işçisi, Raya Həsənova – ADU - nun dosenti, Anar Kərimov – BDU, filologiya üzrə elmlər doktoru, professor, Aydın Şükürov - S. Bəhlulzadə adına xarici dillər təmayüllü gimnaziyanın müəllimi, Fəxrəddin Veysəlli – AMEA - nın Dilçilik İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor, Vasim Məmmədəliyev – AMEA –nın həqiqi üzvü, BDU - nun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor, Çəmən Babaxanova – ADU, filologiya üzrə fəlsəfə doktoru, professor, Nailə Səfərova – BSU - nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Rəfiqə İsayeva – ADU - nun dosenti, Yaşar Alxasov – BSU- nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Sevda Quliyeva - Elitar gimnaziyanın direktoru, Əməkdar müəllim, Qafar Hüseynov – BMLK - nın direktoru, filologiya üzrə elmlər doktoru, Təhminə Rüstəmova - BDU-nun filologiya üzrə elmlər doktoru, professor, Hüzura Ağayeva – ADU-nun Təhsildə İnnovasiyalar kafedrasının baş müəllimi, Rəfiqə Əliyeva – BPKİ və Yİ-nin Xarici Dillər kafedrasının baş müəllimi, Şəhla Kərimova – Bakı Baş Təhsil İdarəsinin Xarici dil üzrə metodisti, Tünzalə Cəfərova – Slavyan Universiteti məktəb-lisey kompleksinin ingilis dili müəllimi, Rəsmiyyə Bədirova - Nərimanov rayonu Bağça - məktəb kompleksinin ingilis dili müəllimi, Rəqsanə Məhərrəmova – Xətai rayonu 56 №-li məktəbin ingilis dili müəllimi, Talehə Abbasova – Nərimanov rayonu 258 № -li məktəbin ingilis dili müəllimi, Şəhla Ağayeva - Xətai rayonu 59№ - li məktəbin ingilis dili müəllimi, Mətanət Abbasova – AMİ – nin Təhsildə İnnovasiyalar kafedrasının

metodisti, Xurşid Həsənova - Binəqədi rayonu 244 №-li məktəbin fransız dili müəllimi, Nailə Həsənova - Xətai rayonu 55 №-li məktəbin fransız dili müəllimi, Sevda İbrahimova - Suraxanı rayonu 140 №-li məktəbin fransız dili müəllimi, Ağca Süleymanova – Avrasiya Universitetinin baş müəllimi, Nüşabə Məmmədova – Xətai rayonu 116 №-li məktəbin alman dili müəllimi, İradə Cəlalova – pedaqogika üzrə fəlsəfə doktoru, Səbail rayonu 6 №-li məktəbin rus dili müəllimi, Azad Əhmədov - Bakı Şəhər PKİA və YH İnstitutunun kafedra müdiri,  Nasir Məmmədəliyev – S. Bəhlulzadə adına Xarici dillər təmayüllü  gimnaziyanın müəllimi, Nailə Cəlilova – "Əməkdar müəllim", Binəqədi rayonu 267 №-li məktəb-liseyin ərəb dili müəllimi tərəfindən hazırlanmışdır.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Akif Əliyev** - TPİ-nin Kurikulum Mərkəzinin Ümumi orta və tam orta təhsil şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru

**Sahib Məcidov** - TPİ-nin Kurikulum Mərkəzinin Ümumi orta və tam orta təhsil şöbəsinin "Xarici dillərin təlimi " bölməsinin müdiri

**Fəridə Hüseynova** - TPİ-nin Kurikulum Mərkəzinin Ümumi orta və tam orta təhsil şöbəsinin "Xarici dillərin təlimi " bölməsinin böyük elmi işçisi

**Gülbəniz Camalova /Allahverdiyeva** - TPİ-nin Kurikulum Mərkəzinin "Xarici dillərin təlimi " bölməsinin aparıcı elmi işçisi, pedagika üzrə fəlsəfə doktoru,

**Aidə Qasımova** – TPİ - nin Kurikulum Mərkəzinin Ümumi orta və tam orta təhsil şöbəsinin "Xarici dillərin təlimi " bölməsinin elmi işçisi

**Mikayıl Seyidov** - TPİ - nin Kurikulum Mərkəzinin

Ümumi orta və tam orta təhsil şöbəsinin "Xarici dillərin təlimi " bölməsinin elmi işçisi

**Aynurə Mahmudova** - TPİ - nin Kurikulum Mərkəzinin Ümumi orta və tam orta təhsil şöbəsinin "Xarici dillərin təlimi " bölməsinin elmi işçisi.

# Mündəricat

**Giriş**
**I. İkinci Xarici dil təliminin məzmunu**
1.1. Ümumi təlim nəticələri
1.2. Məzmun xətləri
1.3. Məzmun xətləri üzrə təlim nəticələri
1.4. Fəaliyyət xətləri
1.5. Məzmun standartları
V sinif
VI sinif
VII sinif
VIII sinif
IX sinif
X sinif
XI sinif
1.6. Fəndaxili və fənlərarasi inteqrasiya
**II. Təlim strategiyaları**
2.1. İkinci Xarici dil təliminin təşkilinə verilən əsas tələblər
2.2. İkinci Xarici dil təliminin təşkilində istifadə olunan forma və üsullar
2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr
2. 4. Ikinci Xarici dil fənninin məzmun standartlarının şərhi
**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**
**Resurslar**
**Tezaurus**
**İstifadə olunmuş ədəbiyyat**

# Giriş

**İkinci xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** İkinci xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) şagird, müəllim, valideyn və cəmiyyətin digər üzvləri üçün maraq doğuran konseptual bir sənəd olub xarici dil təliminin məqsədlərini, bu məqsədlərə nail olmaq üçün bütün fəaliyyətləri əhatə edir. Ümumi orta təhsil və tam orta təhsil səviyyəsində ikinci xarici dili V sinifdən öyrənən şagirdlərdə **ş**ifahi nitqin inkişafı əsas tələb kimi götürülməklə onların ünsiyyət bacarıqlarının formalaşdırılması, dinləyib-anlama vərdişlərinin, lüğət ehtiyatının zənginləşdirilməsi, ən sadə qrammatik anlayışların və nitq nümunələrinin mənimsənilməsi, ilkin oxu və yazı bacarıqlarının inkişaf etdirilməsi təmin olunur.

İkinci xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) dil və sosial-mədəni biliklər əsasında kommunikativ nitq bacarıqlarının formalaşdırılmasını əhatə etməklə nəticəyönümlü məzmun standartlarına uyğun olaraq sadədən mürəkkəbə, asandan çətinə prinsipləri əsasında qurulur, şagird nailiyyətlərini izləməyə və qiymətləndirməyə imkan yaradır. Məzmun standartları müəyyən edilərkən idraki, informativ-kommunikativ və yaradıcı fəaliyyətlər, düşüncə, emosional və psixomotor bacarıqların formalaşdırılması əsas götürülür. Bu sənəd hər bir şagirdin maraq və meyilləri nəzərə alınmaqla onların iki və daha artıq xarici dildə nitq, dil bacarıq və vərdişlərini inkişaf etdirməyi nəzərdə tutur. Bundan əlavə, fəndaxili və fənlərarası inteqrasiyanı, təlim strategiyalarını, təlimin təşkilinə verilən tələbləri, forma və üsulları barədə tövsiyələri özündə əks etdirməklə hər bir məzmun xəttinə görə təhsil pillələri üzrə şagird bacarıqlarının inkişafını təmin edir.

İkinci xarici dil üzrə V sinifdən etibarən, ilkin mərhələ kimi, təlim əvvəlcə şifahi qabaqlama prinsipinə müvafiq olaraq *Dinləyib-anlama* və *Danışma* məzmun xətləri üzrə ümumi təlim nəticələrinin mənimsənilməsi ilə başlanır və tədricən əlavə olaraq *Oxu* və *Yazı* məzmun xətləri üzrə ümumi təlim nəticələrinin öyrənilməsi ilə davam etdirilir.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri**. Məlum olduğu kimi bu gün dünyanın inkişaf etmiş ölkələri içərisində Azərbaycanın özünəməxsus yeri vardır. Onun sosial, iqtisadi və mədəni cəhətdən gündən günə inkişaf etməsi müasir dünyada bütün sahədə əlaqələrinin genişlənməsi zərurətini yaratmışdır. Bu əlaqələrin reallaşması üçün ilk növbədə, ünsiyyət, dil əlaqələrinin yaranması, ondan istifadə olunması bir vəzifə kimi meydana çıxmışdır.

Təhsil sahəsində bu ehtiyacların nəzərə alınması ünsiyyət və dil əlaqələrinin sivil dünyanın tələblərinə uyğun daha geniş miqyasda qurulması üçün ümumtəhsil məktəblərində ikinci bir xarici dilin könüllü olaraq seçilməsinə imkan yaradılmış və bu məsələ Azərbaycan hökümətinin 2010-cu ildə təsdiq etdiyi "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) sənədində təsbit edilmişdir. Artıq Respublikanın ümumtəhsil məktəbinin V-XI siniflərində ikinci xarici dilin bir fənn kimi tədrisi barədə qərar qəbul edilmişdir. Bu təhsil proqramı (kurikulumu) da həmin proqrama uyğun olaraq hazırlanmaqla cəmiyyətimizin ehtiyac və tələbatlarına yönəlmişdir.

Artıq Azərbaycan dünya birliyi ölkələri ilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Buna görə də başqa fəaliyyətlərlə yanaşı, bir və ya iki xarici dildə ünsiyyət qurmağı, əlaqə saxlamağı bacaran şəxsiyyətin formalaşdırılması müasir məktəbin mühüm vəzifələrindən biridir. Məhz ikinci xarici dil fənninin əhəmiyyəti dil bacarıqlarına yiyələnmək, kommunikativ vərdişləri inkişaf etdirmək, asudə vaxtını səmərəli təşkil etmək, sosial tələbatı ödəmək, şəxsi və intellektual inkişafa nail olmaq, ömrü boyu öyrənmək, mədəniyyətlərarası dialoqa və qloballaşma prosesinə qoşulmaqdır.

Bütün bunları nəzərə alaraq, ümumtəhsil məktəblərində xarici dil təliminin əsas məqsədi nitq, dil və kommunikativ bacarıq və vərdişlərin formalaşdırılması kimi müəyyənləşdirilir.

Göstərilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi zəruridir:

- şagirdlərin zəruri linqvistik (fonetik, orfoqrafik, leksik və s.) biliklərə yiyələnməsi;
- şagirdlərin dili öyrənilən ölkələrin mədəniyyət və ənənələri ilə tanış edilməsi, onlarda xarici dil və mədəniyyətlərarası mühitdə öz ölkəsini və onun mədəniyyətini təmsil etmək bacarıqlarının formalaşdırılması;

- nitq fəaliyyəti üzrə kommunikativ bacarıqların inkişaf etdirilməsi;
- dil duyumunun, yaddaşın bütün növlərinin, məntiqi, tənqidi və yaradıcı təfəkkürün (müqayisə, ümumiləşdirmə, nəticə çıxarma və s.) formalaşdırılması və inkişaf etdirilməsi;
- vətəndaşlıq keyfiyyətlərinin, digər mədəniyyətlərə hörmət hissinin tərbiyə olunması.

**İkinci xarici dil fənni üzrə ümumi orta təhsil səviyyəsində** şifahi nitqin inkişafı əsas tələb kimi götürülməklə şagirdləri ünsiyyət bacarıqlarının formalaşdırılması, lüğət ehtiyatının zənginləşdirilməsi, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsi, dinləyib-anlama vərdişləri, oxu, yazı texnikası və yazılı nitqin inkişaf etdirilməsi təmin olunur.

**Tam orta təhsil səviyyəsində** ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulan fəaliyyətlər inkişaf etdirilməklə şagirdlərin ikinci xarici dil üzrə kommunikativ bacarıqlara və ünsiyyət mədəniyyətinə yiyələnmələri, lüğət ehtiyatının zənginləşdirilməsi, onlarda xarici dili dərindən öyrənməyə maraq oyadılması, dilini öyrəndiyi ölkə (ölkələr) ilə tanışlıq əsasında dünyagörüşlərinin genişləndirilməsi təmin olunur.

## 1. İkinci xarici dil təliminin məzmunu

## 1. 1. Ümumi təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:***

- dinlədiyi fikrin məzmununu izah edir;
- əşya və hadisələri, onlara aid əlamətləri ifadə edir;
- sadə nitq etiketləri əsasında ünsiyyət qurur;
- yeni sözlərin mənasını lüğət vasitəsilə müəyyən edir;
- kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edir;
- kiçikhəcmli yazılı və şifahi mətnlər qurur.

***Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:***

- dinlədiyi və oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- dialoji və monoloji nitq bacarıqlarını nümayiş etdirir;

- mətnləri oxuyur, planını tərtib edir, qısa məzmununu yazır;
- öz fikirlərini şifahi və yazılı ifadə edir;
- sadə mətnləri lüğətlər vasitəsilə tərcümə edir.

## 1.2. Məzmun xətləri

Xarici dil təlimində qarşıya qoyulmuş məqsəd və vəzifələri reallaşdırmaq üçün məzmun xətləri aşağıdakı şəkildə müəyyənləşdirilir:

- Dinləyib-anlama
- Danışma
- Oxu
- Yazı

**Dinləyib-anlama**

Dinləyib-anlama nitq fəaliyyətinin digər növləri ilə sıx bağlı olub, danışma üçün zəmin yaradır və xarici dilin öyrənilməsində mühüm yer tutur. Nitqin formalaşmasında əsas rol oynayan dinləyib-anlama şagirdlərdə eşitdiyi nitqi diqqətlə dinləmək, məzmununu müəyyənləşdirmək və əldə etdiyi yeni informasiyanı yadda saxlamaq bacarıqlarının formalaşdırılmasını təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- dinlədiyi mətndə əsas fikri müəyyən edir;
- dinlədiyi mətndə yeni informasiyanı seçir;
- dinlədiyi müxtəlif nitqdə danışıq dili ilə ədəbi dili fərqləndirir.

**Danışma**

Danışma həm monoloji, həm də dialoji formada təzahür edərək yaddaşda qalan sözlərin seçilməsi və onların nitq prosesinə daxil edilməsi, fikrin şifahi ifadəsidir. O, şagirdlərdə ünsiyyətə girmək, öz fikirlərini ifadə etmək, gördükləri və eşitdikləri haqqında

məlumat verə bilmək, danışanın fikrinə münasibət bildirmək bacarıqlarının formalaşdırılmasını təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- nitqində sadə və mürəkkəb konstruksiyalardan istifadə edir;
- oxuduğu və ya dinlədiyi mətnin məzmununu izah edir;
- eyni fikri müxtəlif formalarda ifadə edir;
- əşya və hadisələrə, gördüyünə və eşitdiyinə, müzakirə olunan məsələlərə münasibət bildirir;
- şəraitə uyğun olaraq ünsiyyət qura bildiyini nümayiş etdirir;
- müxtəlif mənbələrdən topladığı informasiyalar əsasında təqdimat edir.

**Oxu**

Nitq fəaliyyətinin bu növü şagirdlərdə oxu texnikasına (sürətli, düzgün, şüurlu, ifadəli) yiyələnmək, oxu vərdişlərini inkişaf etdirmək, yeni bilik və məlumatlar qazanmaq, ətraf aləmi dərindən dərk etmək imkanlarının yaranmasını təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- oxu prosesində tələffüz qaydalarını mənimsədiyini nümayiş etdirir;
- oxuduğu mətnlərdə əsas məzmunu müəyyən edir;
- oxuduğu mətnlərin məzmununu şərh və izah edir;
- oxuduğu mətndə əsas fikri müəyyən edir,yeni informasiyanı seçir.

**Yazı**

Cəmiyyətin hazırki inkişaf səviyyəsində insanların iqtisadiyyat, təhsil, biznes, mədəniyyət və incəsənət sahələri üzrə ünsiyyət yaratmaq tələbatları xeyli artmışdır. Belə bir vəziyyətdə bu və ya digər xarici dildə yazı bacaraqlarına yiyələnmədən ötüşmək mümkün deyildir. Bu mənada ümumtəhsil məktəblərində xarici dil təliminin mühüm bir istiqamətini

yazı vərdişlərinin formalaşdırılması təşkil edir. Buna görə də şagirdlərə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsi ilə ünsiyyət qurmaq, həyati tələbatlarla bağlı yazı bacarıqlarını mənimsətmək zəruri hesab olunur.

**Ümumi nəticələr**

**Şagird:**

- Əməli yazı bacarıqlarını nümayiş etdirir;
- Müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə ünsiyyət qurur;
- Həyati tələbatlarla bağlı yazı bacarıqlarını nümayiş etdirir.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

**Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri**

1. **Dinləyib - anlama**

**Şagird:**

- müraciətlərə cavab verir;
- dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir;
- dinlədiyi fikrə münasibət bildirir.

2. **Danışma**

**Şagird:**

- danışanın nitqinə münasibət bildirir, əşya və hadisələri ifadə edir;
- sadə nitq etiketləri əsasında dialoqlar qurur;
- kiçikhəcmli mətnlər qurur.

3. **Oxu**

**Şagird:**

- yeni sözlərin mənasını lüğət vasitəsilə müəyyən edir;
- oxuduğu mətnin məzmununu izah edir.

4. **Yazı**

**Şagird:**

- kiçikhəcmli yazılı və məlumat xarakterli mətnlər qurur.

**Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri**

1. **Dinləyib – anlama**

**Şagird:**

- dinlədiyi mətnin məzmununu şərh edir;
- dinlədiyi mətnin məzmununa münasibət bildirir.

2. **Danışma**

**Şagird:**

- nitqində tələffüz qaydalarına yiyələndiyini nümayiş etdirir;
- öz fikrini məntiqi ardıcıllıqla ifadə edir.

3. **Oxu**

**Şagird:**

- oxuduğu mətnin məzmununa münasibət bildirir;
- mətni oxuyur, planını tərtib edir, qısa məzmununu yazır.

4. **Yazı**

**Şagird:**

- müxtəlif üslublu yazılar yazır;
- öz fikrini yazılı fadə edir;
- sadə mətnləri lüğətlər vasitəsilə tərcümə edir.

## 1.4. Fəaliyyət xətləri

- Problemin həlli
- Tədqiqetmə və tətbiqetmə
- Təsviretmə və təqdimetmə
- Əlaqələndirmə və ünsiyyət
- Dəyərləndirmə və yaradıcı tətbiqetmə

***Dinləyib-anlama fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər reseptiv bacarıqlar yəni (*dinləmək, anlamaq, xatırlamaq, tanımaq, müəyyən etmək, təsnif etmək, müqayisə etmək, təsvir etmək,*) qazanır.

***Dinləyib-anlama fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər ***sosial və kommunikativ vərdişlər*** qazanırlar. Əldə olunan bu bacarıqlar şagirdlərdə şəxsiyyətyönümlü dəyərlər formalaşdırır: *"Yalnız yaxşı dinləyənlər həyatda yaxşı natiq ola bilər."* Fikrini əsas götürərək dinlədiyi nitqə diqqətlə qulaq asır, informasiya əldə edir, tolerantlıq göstərərək başqasının nitqini sona qədər dinləyir, təmkinli olur, qarşılıqlı hörmət və səmimiyyət kimi əxlaqi keyfiyyətlər kimi sivil davranışlar qazanır.

***Danışıq fəaliyyəti*** üzrə məzmun xəttinə əsasən şagirdlər produktiv bacarıqlar *(ünsiyyət qurmaq, izah etmək, şərh etmək, münasibət bildirmək, nümayiş etdirmək, təqdimat vermək, problemi həll etmək, təkliflər vermək)*qazanır.

***Danışıq fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər ***sosial və kommunikativ vərdişlər*** qazanır: düzgün vurğu, ritm və intonasiya daxilində axıcı, rəvan, aydın və səlis nitqə malik olur, eyni zamanda onlarda tənqidi təfəkkür, sərəbst düşüncə və özünəinam kimi keyfiyyətlər formalaşır.

***Oxu fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər aşağıdakı oxu bacarıqları qazanırlar*: (müəyyən etmək, analiz etmək, müqayisə etmək, araşdırmaq, təşkil etmək)*

***Oxu fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər ***sosial və kommunikativ vərdişlərə*** yiyələnir: oxu vərdişlərinə malik olan şagirdlər mütaliə mədəniyyəti qazanır, bədii zövqü və elmi-intellektual səviyyəni artırır, həyatsevərlik və gələcək planları haqqında yeni düşüncələr əldə edir. Mətn üzrə problemi təyin edərək, yaddaşı, yaradıcılıqlarını, davranış mədəniyyətlərini təkmilləşdirir, hadisələri dəyərləndirmək kimi keyfiyyətlər qazanırlar. Mətndəki hadisələrə, xarakterlərə, süjetlərə yazılı və şifahi şəkildə öz fikrini bildirir. Oxunu bir əyləncə vasitəsi kimi dərk edən şagirdlər müxtəlif mədəniyyətlər haqqında yeni biliklər toplayır, oxuduqları mətni səhnələşdirərək pantomimo və tamaşalar hazırlayır, ədəbi-bədii, elmi-intellektual kitab və əsərləri oxumaq həvəsi qazanır, şeir, nəsr, elmi-kütləvi əsərlər, milli və xarici folklor nümunələrinə məhəbbət və hörmət bəsləyir.

***Yazı fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər ***akademik yazı və mediasiya bacarıqları:***(təşkiletmək, söz seçmək, ardıcıl sıraya düzmək, cümlə quruluşuna riayət etmək, aydınlaşdırıcı fakt və arqumentlərdən istifadə etmək və nəticəyə gəlmək) qazanırlar

***Yazı fəaliyyəti*** üzrə məzmun xətlərinə əsasən şagirdlər ***sosial və kommunikativ vərdişlərə*** yiyələnir: Əməli yazı (esse, layihə, məktub, dəvətnamə) qaydalarını nümayiş etdirir. Akademik yazının bütün mərhələlərinə yiyələnərək planlaşdırma, , təhliletmə, izahetmə ümumiləşdirmə, təkraretmə və nəşretmə bacarıqları qazanır, müstəqil yazıçı, şair və jurnalist olur. Şagirdlər yazı vasitəsilə öz fikirlərinin dəyərləndirilməsinə imkan yaradır, dünyəvi əlaqələrə, onlayn layihələrinə qoşularaq demokratiyada fəal iştirak edirlər.

## 1.5. Məzmun standartları

### V sinif

**V sinfin sonunda şagird:**

- təqdim olunan nitq modellərini, o cümlədən nitq etiketlərini başa düşdüyünü nümayiş etdirir;
- düzgün tələffüz vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- kiçikhəcmli sadə mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir;
- sadə nitq modellərindən və nitq etiketlərindən istifadə edərək ünsiyyət qurmaq bacarıqları nümayiş etdirir;
- ilkin oxu bacarıqlarını nümayiş etdirir;
- sadə yazı bacarıqlarını nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Dinlədiyi fikrin məzmununu anladığını nümayiş etdirir.***

1.1.1. Sinifdaxili müraciətlərə əməl edir.

1.1.2. Adını eşitdiyi əşyaları şəkillərdə seçir və göstərir.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Dinlədiyi səs, səs birləşmələrini və sadə sözləri təkrar edir.

***2.2. Sadə nitq etiketləri əsasında ünsiyyət qurur.***

2.2.1. Şəkildə əks olunan əşyaları və ətrafdakıları (ailə, məktəb) adlandırır.

2.2.2 Adlandırdığı əşyaların əlamətlərini (həcm, rəngi, forma) sadalayır.

2.2.3. Şəkildə əks olunan əşyaları və ətrafdakıları öyrəndiyi sözlər əsasında təsvir edir.

2.2.4. Öyrəndiyi söz, söz birləşmələri və nitq edtiketlərindən istifadə edərək ünsiyyət qurur.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxu bacarıqları nümayiş etdirir.***

3.1.1. Hərf, hərf birləşmələri və sözləri düzgün oxuyur.

3.1.2. Kiçikhəcmli mətnləri düzgün intonasiya ilə oxuyur.

3.1.3. Kiçikhəcmli mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir.

**4. Yazı**

**Şagird:**

***4.1. Sadə yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Hərf, hərf birləşmələri və sözləri düzgün yazır.

4.1.2. Öyrəndiyi söz birləşmələri və cümlələri düzgün yazır.

4.1.3. Sadə məktublar yazı

## VI sinif

**VI sinfin sonunda şagird:**

- kiçikhəcmli sadə mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir;
- düzgün tələffüz vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- nitq nümunələrindən və nitq etiketlərindən istifadə edərək ünsiyyət qurmaq bacarıqlarını nümayiş etdirir;
- oxu bacarıqlarını nümayiş etdirir;
- sadə yazı bacarıqlarını nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Kiçikhəcmli sadə mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir.***

1.1.1. Müraciətlərə əməl edir və sadə sualları cavablandırır.

1.1.2. Adını eşitdiyi əşya və hadisələri şəkillərdə seçir və göstərir.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Dinlədiyi söz, söz birləşmələrini və sadə sözləri təkrar edir.

***2.2. Öyrəndiyi nitq nümunələrindən istifadə edərək ünsiyyət qurmaq bacarıqları nümayiş etdirir.***

2.2.1. Şəkildə əks olunan əşyaları və hadisələri (geyim, hava) adlandırır.

2.2.2. Adlandırdığı əşyaların əlamətlərini (forma və kəmiyyət) sadalayır.

2.2.3. Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur.

2.2.4. Nitqində yeni söz və ifadələrdən düzgün istifadə edərək ünsiyyət qurur.

**3. Oxu**

**Şagird:**

***3.1. Kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edir.***

3.1.1. Kiçikhəcmli mətnlərdə yeni söz və ifadələri düzgün oxuyur.

3.1.2. Mətndəki yeni söz və ifadələri lüğətdən istifadə edərək oxuyur.

3.1.3. Oxuduğu mətnin məzmununa uyğun suallara cavab verir.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Dinlədiyi sözləri, söz birləşmələrini və sadə cümlələri düzgün yazır.

4.1.2. Müşahidə etdiyi əşya və hadisələrin əlamətlərini yazır.

4.1.3. Təsvir xarakterli məktub yazır.

## VII sinif

**VII sinfin sonunda şagird:**

- kiçikhəcmli dialoqlarda iştirak edir;
- kiçikhəcmli mətnlərin məzmununu danışır;
- oxuduğu mətndə fakt və hadisələri müəyyən edir;
- sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur;
- sözləri orfoqrafiya qaydalarına uyğun yazır;
- sadə elanlar yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Dinlədiyi fikrin məzmununu anladığını nümayiş etdirir.***

1.1.1. Tapşırıq xarakterli müraciətlərə cavab verir.

1.1.2. Dinlədiyi mətndə yeni söz və ifadələri seçir.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Dinlədiyi söz və söz birləşmələrini düzgün tələffüz edir.

***2.2. Sadə nitq etiketləri əsasında ünsiyyət qurur.***

2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşyaları adlandırır.

2.2.2. Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyəti, görünüşü) sadalayır.

2.2.3. Kiçikhəcmli dialaoqlarda iştirak edir.

2.2.4. Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.***

3.1.1. Kiçikhəcmli mətnləri düzgün və sürətli oxuyur.

3.1.2. Mətndəki cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.

3.1.3. Oxuduğu mətndə fakt və hadisələri müəyyən edir.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Şəkil üzrə kiçikhəcmli yazılı mətn qurur.

4.1.2. Sözləri orfoqrafiya qaydalarına uyğun yazır.

4.1.3. Sadə elanlar yazır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- dinlədiyi və oxuduğu mətnlərdə əsas fikri və məntiqi ardıcıllığı müəyyən edir;
- nitq etiketlərindən, nitq modellərindən istifadə edir;
- öyrəndiyi nitq modellərindən məqsədyönlü istifadə edir.
- oxuduğu mətndə söz və ifadələri qruplaşdırır və mətndə əsas fikri müəyyən edir;
- cümlələri məna və qrammatik cəhətdən əlaqələndirir;
- orfoqrafiya işarələrindən düzgün istifadə edir;
- sadə afişalar yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Dinlədiyi fikrin məzmununu anladığını nümayiş etdirir.***

1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Cümlələri və nitq etiketlərini düzgün tələffüz edir.

***2.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.***

2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya və hadisələri adlandırır.

2.2.2. Şəkildə əks olunan əşya və hadisələri öyrəndiyi sözlər əsasında təsvir edir.

2.2.3. Dialoqlarda nitq etiketlərindən istifadə edir.

2.2.4. Öyrəndiyi nitq mdellərindən məqsədyönlü istifadə edir.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.***

3.1.1. Oxuduğu mətnin məzmununa aid suallar tərtib edir.

3.1.2. Oxuduğu mətndə söz və ifadələri seçir və qruplaşdırır.

3.1.3. Mətndəki əsas fikri müəyyənləşdirir.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Verilmiş cümlələr əsasında kiçikhəcmli yazılı mətn qurur.

4.1.2. Orfoqrafiya işarələrindən düzgün istifadə edir.

4.1.3. Sadə afişalar yazır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- dinlədiyi və oxuduğu mətnin məzmununu hissələrə ayırır və plan tərtib edir;
- müxtəlif cümlə konstruksiyalarından istifadə etməklə fikirlərini ardıcıl ifadə edir;
- söz və ifadələri morfoloji xüsusiyyətlərinə görə fərqləndirir, cümlələri düzgün intonasiya ilə oxuyur;
- mətnin məzmununu məntiqi ardıcıllıqla danışır;
- oxuduğu mətndə müxtəlif əşya və hadisələri təsvir edir;
- dəvətnamə və açıqca yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Dinlədiyi fikrin məzmununu anladığını nümayiş etdirir.***

1.1.1. Mərhələli müraciətləri ardıcıl icra edir.

1.1.2. Dinlədiyi mətnin məzmunu hissələrə ayırır.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Kiçikhəcmli nitq nümunələrini düzgün tələffüz edir

***2.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.***

2.2.1. Zaman və məkanla bağlı anlayışları adlandırır.

2.2.2. Nitq etiketlərindən mövzuya uyğun istifadə edir.

2.2.3. Müxtəlif mövzulu dialoqlarda iştirak edir.

2.2.4. Müzakirələrdə mövzu ilə bağlı fikirlərini bildirir.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.***

3.1.1. Söz və ifadələri morfoloji xüsusiyyətlərinə görə qruplaşdırır.

3.1.2. Mətni uyğun ton, temp, ritm və fasilə ilə oxuyur.

3.1.3. Oxuduğu mətnin məzmununu məntiqi ardıcıllıqla danışır.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Verilmiş mövzu üzrə fikirlərini yazılı ifadə edir.

4.1.2. Müxtəlif əşya və hadisələri yazılı təsvir edir.

4.1.3. Dəvətnamə və açıqca yazır.

**X sinif**

**X sinfin sonunda şagird:**

- çoxmərhələli müraciətləri ardıcıl icra edir;
- dinlədiyi mətnin əsas ideyasını müəyyən edir;
- dinlədiyi və oxuduğu mətnin məzmununu danışır;
- nitq vahidlərindən istifadə etməklə fikirlərini müxtəlif formalarda ifadə edir;
- oxuduğu mətndə əsas fakt və hadisələri seçir, qruplaşdırır;

- oxuduğu mətnin məzmununu ümumiləşdirərək şərh edir;
- müxtəlif konstruksiyalı cümlələri düzgün oxuyur və yazır.
- tərcümeyi-hal, ərizə yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1. Dinlədiyi mətnin məzmununa münasibət bildirir.***

1.1.1. Çoxmərhələli müraciətləri ardıcıl icra edir.

1.1.2. Dinlədiyi mətnin planını tutur.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Müxtəlif nitq nümunələrini düzgün tələffüz edir.

***2.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.***

2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya, hadisə və situasiyaları adlandırır.

2.2.2.Əşya, hadisə və situasiyaların əlamətlərini təsvir edir.

2.2.3. Mövzu ilə bağlı fikirlərini müxtəlif formada ifadə edir.

2.2.4. Fikirlərini müqayisələr aparmaqla izah edir.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.***

3.1.1. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

3.1.2. Mətni məzmununa uyğun intonasiya ilə oxuyur.

3.1.3. Oxuduğu mətnin məzmununu ümumiləşdirərək şərh edir.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Dinlədiyi mətnin məzmununu ardıcıl yazır.

4.1.2. Məlumat xarakterli mətnlər yazır.

4.1.3. Tərcümeyi hal və ərizə yazır.

## XI sinif

**XI sinfin sonunda şagird:**

- dinlədiyi və oxuduğu mətnin məzmununa münasibət bildirir;
- müxtəlif mövzulu müzakirələrdə iştirak edir;
- mətnin məzmununa, müxtəlif mövqeli fikirlərə münasibət bildirir;
- söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir;
- mətnləri məzmununa uyğun intonasiya ilə oxuyur;
- fakt və hadisələrə yazılı münasibət bildirir;
- təqdimat və kiçik çıxışlar hazırlayır;
- müxtəlif formaları doldurur.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama**

**Şagird:**

***1.1.Dinlədiyi mətnin məzmununa münasibət bildirir.***

1.1.1. Müraciətdə ifadə olunan fikrə münasibət bildirir.

1.1.2. Dinlədiyi mətnin məzmununu şərh edir.

**2. Danışma**

**Şagird:**

***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.***

2.1.1. Nitqində tələffüz qaydalarına yiyələndiyini nümayiş etdirir.

***2.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.***

2.2.1. Müxtəlif süjetli şəkillər üzrə ünsiyyət qurur.

2.2.2. Müxtəlif situasiyalara öz münasibətini bildirir.

2.2.3. Müxtəlif mövzularda müzakirələr (təbiət, cəmiyyət, ailə, məktəb) aparır.

2.2.4. Müxtəlif mövzulu müzakirələrdə iştirak edir.

**3. Oxu**

**Şagird:**

***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.***

3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

3.1.2. Mətndəki müxtəlif konstruksiyalı cümlələri düzgün oxuyur.

3.1.3. Oxuduğu mətnin məzmununa münasibətini bildirir.

**4. Yazı**

**Şagird:**

***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.***

4.1.1. Fikirlərini müxtəlif formalarda (inşa, esse, hekayə) ifadə edir.

4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

4.1.3. Müxtəlif anket formaları yazır.

## 1.6. Fəndaxili və fənlərarası inteqrasiya

İnteqrasiya ayrı-ayrı hissələrin məntiqi surətdə bütöv bir tam halında bir-birilə qarşılıqlı əlaqədə birləşməsidir.

**İnteqrasiya** vaxtdan səmərəli istifadə etməklə şagirdlərin təlim yükünün azalmasına, inteqrativ bilik və bacarıqlarının formalaşmasına şərait yaradır. Bundan əlavə, inteqrasiya bilik və bacarıqların qazanılmasında öyrənmənin intensivliyini, səmərəliliyini artırır və təlimə marağın yüklsəlməsinə kömək edir.

Xarici dil təlimində inteqrasiya dilin sosial-kommunikativ vasitə kimi öyrənilməsinə və dilin tətbiqi sahələrinin genişlənməsinə zəmin yaradır.

Xarici dil təlimi inteqrasiyanın iki növünü nəzərdə tutur:

- Fəndaxili
- Fənlərarası

**Fəndaxili inteqrasiya** geniş mənada həmin fənnin məzmun xətləri arasındakı əlaqəni, fənn üzrə nəticələrin sinifdaxili və siniflərarası əlaqələrini nəzərdə tutur. Fənnin məzmun xətləri arasındakı əlaqələr bütün aspektlərdə özünü büruzə verir və bir-birini tamamlayır. Dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətləri arasında inteqrasiya buna misal ola

bilər. Fəndaxili inteqrasiyanın nəzərə alınması və həyata keçirilməsi konkret vaxt ərzində şagirddə nitq fəaliyyətinin növlərinin tam - vəhdət halında inkişafı üçün zəmin yaradır.

**Fənlərarası inteqrasiya** müxtəlif fənlər arasında əlaqəni əhatə edir. Konkret olaraq xarici dil fənninin digər fənlərlə integrasiyasının təmin edılməsi zəruri sayılan ümumi bacarıqların (kompetensiyaların) əldə olunmasına hərtərəfli imkanlar yaradır. Fəndaxili və fənlərarası inteqrasiyanın cədvəldə ifadəsini aşağıdakı kimi vemək olar:

## Fəndaxili (üfüqi) inteqrasiya

| 1. Dinləyib anlama | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Vsinif** | **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| ***1.1. Dinlədiyi fikrin məzmununu anladığını nümayiş etdirir.*** | | | | | ***1.1. Dinlədiyi mətnin məzmununa münasibət bildirir.*** | |
| **1.1.1.**Sinifdaxili müraciətlərə əməl edir. | **1.1.1.**Müraciətlərə əməl edir və sadə sualları cavablandırır. | **1.1.1.**Tapşırıq xarakterli müraciətlərə cavab verir. | **1.1.1.**Müraciətlərə uyğun tapşırıqları icra edir. | **1.1.1.**Mərhələli müraciətləri ardıcıl icra edir. | **1.1.1.** Çoxmərhəl əli müraciətləri ardıcıl icra edir. | **1.1.1.** Müraciətdə ifadə olunan fikrə münasibət bildirir. |
| **1.1.2.** Adını eşitdiyi əşya və hadisələri şəkillərdə seçir və göstərir. | **1.1.2.** Adını eşitdiyi əşya və hadisələri şəkillərdə seçir və göstərir. | **1.1.2.**Dinlədiyi mətndə yeni söz və ifadələri seçir. | **1.1.2.**Dinlədiyi mətndəki əsas fikri müəyyən edir. | **1.1.2.**Dinlədiyi mətnin məzmunu hissələrə ayırır. | **1.1.2.** Dinlədiyi mətnin planını tutur. | **1.1.2.**Dinlədiyi mətnin məzmununu şərh edir. |
| **2. Danışma** | | | | | | |
| **V sinif** | **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| ***2.1. Düzgün tələffüz qaydalarına riayət edir.*** | | | | | | |
| **2.1.1.** Dinlədiyi səs, səs birləşmələrini və sadə sözləri təkrar edir. | **2.1.1.** Dinlədiyi söz, söz birləşmələrini və sadə sözləri təkrar edir. | **2.1.1.** Dinlədiyi söz və söz birləşmələrini düzgün tələffüz edir. | **2.1.1.** Cümlələri və nitq etiketlərini düzgün tələffüz edir. | **2.1.1.** Kiçikhəcmli nitq nümunələrini düzgün tələffüz edir | **2.1.1.** Müxtəlif nitq nümunələrini düzgün tələffüz edir. | **2.1.1.** Nitqində tələffüz qaydalarına yiyələndiyini nümayiş etdirir. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| *2.2. Sadə nitq etiketləri əsasında ünsiyyət qurur.* | | | *2.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.* | | | |
| **2.2.1.** Şəkildə əks olunan əşyaları və ətrafdakıları (ailə, məktəb) adlandırır. | **2.2.1.** Şəkildə əks olunan əşyaları və hadisələri (geyim, hava) adlandırır. | **2.2.1.** Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşyaları adlandırır. | **2.2.1.** Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya və hadisələri adlandırır. | **2.2.1.** Zaman və məkanla bağlı anlayışları adlandırır. | **2.2.1.** Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya, hadisə və situasiyaları adlandırır. | **2.2.1.** Müxtəlif şüjetli şəkillər üzrə ünsiyyət qurur. |
| **2.2.2.** Adlandırdığı əşyaların əlamətlərini (həcm, rəngi, forma) sadalayır. | **2.2.2.** Adlandırdığı əşyaların əlamətlərini (forma və kəmiyyət) sadalayır. | **2.2.2.** Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyəti, görünüşü) sadalayır. | **2.2.2.** Şəkildə əks olunan əşya və hadisələri öyrəndiyi sözlər əsasında təsvir edir. | **2.2.2.** Nitq etiketlərindən mövzuya uyğun istifadə edir. | **2.2.2.**Əşya, hadisə və situasiyaların əlamətlərini təsvir edir. | **2.2.2.** Müxtəlif situasiyalara öz münasibətini bildirir. |
| **2.2.3.** Şəkildə əks olunan əşyaları və ətrafdakıları öyrəndiyi sözlər əsasında təsvir edir. | **2.2.3.** Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur. | **2.2.3.** Kiçikhəcmli dialaoqlarda iştirak edir. | 2.2.3. Dialoqlarda nitq etiketlərindən istifadə edir. | **2.2.3.** Müxtəlif mövzulu dialoqlarda iştirak edir. | **2.2.3.** Mövzu ilə bağlı fikirlərini müxtəlif formada ifadə edir. | **2.2.3.** Müxtəlif mövzularda müzakirələr (təbiət, cəmiyyət, ailə, məktəb) aparır. |
| **2.2.4.** Öyrəndiyi söz, söz | **2.2.4.** Nitqində yeni söz və | **2.2.4.** Öyrəndiyi yeni söz və | **2.2.4.** Öyrəndiyi nitq modellərindən | **2.2.4.** Müzakirələrdə | **2.2.4.** Fikirlərini müqayisələr | **2.2.4.** Müxtəlif mövzulu |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| birləşmələri və nitq edtiketlərindən istifadə edərək ünsiyyət qurur. | ifadələrdən düzgün istifadə edərək ünsiyyət qurur. | ifadələrdən mövzuya uyğun istifadə edir. | məqsədyönlü istifadə edir. | mövzu ilə bağlı fikirlərini bildirir. | aparmaqla izah edir. | müzakirələrdə iştirak edir. |
| **3. Oxu** | | | | | | |
| **V sinif** | **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| ***3.1. Oxu bacarıqları nümayiş etdirir.*** | ***3.1. Kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edir.*** | ***3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.*** | | | | |
| **3.1.1.** Hərf, hərf birləşmələri və sözləri düzgün oxuyur. | **3.1.1.**Kiçikhəcmli mətnlərdə yeni söz və ifadələri düzgün oxuyur. | **3.1.1.** Kiçikhəcmli mətnləri düzgün və sürətli oxuyur. | **3.1.1.** Oxuduğu mətnin məzmununa aid suallar tərtib edir. | **3.1.1.** Söz və ifadələri morfoloji xüsusiyyətlərinə görə qruplaşdırır. | **3.1.1.** Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır. | **3.1.1.** Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir. |
| **.3.1.2.** Kiçikhəcmli mətnləri düzgün intonasiya ilə oxuyur. | **3.1.2.** Mətndəki yeni söz və ifadələri lüğətdən | **3.1.2.** Mətndəki cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. | **3.1.2.** Oxuduğu mətndə söz və ifadələri seçir və qruplaşdırır. | **3.1.2.** Mətni uyğun ton, temp, ritm və fasilə ilə oxuyur. | **3.1.2.** Mətni məzmununa uyğun intonasiya ilə oxuyur. | **3.1.2.** Mətndəki müxtəlif konstruksiyalı cümlələri düzgün oxuyur. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | istifadə edərək oxuyur. | | | | | |
| **3.1.3.** Kiçikhəcmli mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir. | **3.1.3.** Oxuduğu mətnin məzmununa uyğun suallara cavab verir. | **3.1.3.** Oxuduğu mətndə fakt və hadisələri müəyyən edir. | **3.1.3.** Mətndəki əsas fikri müəyyənləşdirir. | **3.1.3.** Oxuduğu mətnin məzmununu məntiqi ardıcıllıqla danışır. | **3.1.3.** Oxuduğu mətnin məzmununu ümumiləşdirərək şərh edir. | **3.1.3.** Oxuduğu mətnin məzmununa münasibətini bildirir. |
| **4. Yazı** | | | | | | |
| **V sinif** | **VI sinif** | **VII sinif** | **VIII sinif** | **IX sinif** | **X sinif** | **XI sinif** |
| ***4.1. Sadə yazı bacarıqları nümayiş etdirir.*** | ***4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.*** | | | | | |
| **4.1.1.** Hərf, hərf birləşmələri və sözləri düzgün yazır. | **4.1.1.** Dinlədiyi sözləri, söz birləşmələrini və sadə cümlələri düzgün yazır. | **4.1.1.** Şəkil üzrə kiçikhəcmli yazılı mətn qurur. | **4.1.1.** Verilmiş cümlələr əsasında kiçikhəcmli yazılı mətn qurur. | **4.1.1.** Verilmiş mövzu üzrə fikirlərini yazılı ifadə edir. | **4.1.1.** Dinlədiyi mətnin məzmununu ardıcıl yazır. | **4.1.1.** Fikirlərini müxtəlif formalarda (inşa, esse, hekayə) ifadə edir. |
| **4.1.2.** Öyrəndiyi söz birləşmələri və cümlələri düzgün yazır. | **4.1.2.** Müşahidə etdiyi əşya və hadisələrin əlamətlərini yazır. | **4.1.2.** Sözləri orfoqrafiya qaydalarına uyğun yazır. | **4.1.2.** Orfoqrafiya işarələrindən düzgün istifadə edir. | **4.1.2.** Müxtəlif əşya və hadisələri yazılı təsvir edir. | **4.1.2.** Məlumat xarakterli mətnlər yazır. | **4.1.2.** Fakt və hadisələrə yazılı münasibət bildirir. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **4.1.3.** Sadə məktublar yazır. | **4.1.3.** Təsvir xarakterli məktub yazır. | **4.1.3.** Sadə elanlar yazır. | **4.1.3.** Sadə afişalar yazır. | **4.1.3.** Dəvətnamə və açıqca yazır. | **4.1.3.** Tərcümeyi hal və və ərizə yazır. | **4.1.3.** Müxtəlif anket formaları yazır. |

# Fənlərarası inteqrasiya

| Kodlaşma | | | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|---|---|
| Məzmun xəttinin nömrəsi | Standartın nömrəsi | Alt standartın nömrəsi | | | | | | | |
| 1 | 1 | 1 | Sinifdaxili müraciətlərə əməl edir. | Müraciətlərə əməl edir və sadə sualları cavablandırır. | Tapşırıq xarakterli müraciətlərə cavab verir. | Müraciətlərə uyğun tapşırıqları icra edir. | Mərhələli müraciətləri ardıcıl icra edir. | Çoxmərhələli müraciətləri ardıcıl icra edir. | Müraciətdə ifadə olunan fikrə münasibət bildirir. **Az-d. 1.1.2.** |
| 1 | 1 | 2 | Adını eşitdiyi əşyaları şəkillərdə seçir və göstərir. | Adını eşitdiyi əşya və hadisələri şəkillərdə seçir və göstərir. | Dinlədiyi mətndə yeni söz və ifadələri seçir. | Dinlədiyi mətndəki əsas fikri müəyyən edir. **Az-d. 1.1.2.** | Dinlədiyi mətnin məzmunu hissələrə ayırır. | Dinlədiyi mətnin planını tutur. | Dinlədiyi mətnin məzmununu şərh edir. |
| 2 | 1 | 1 | Dinlədiyi səs, səs birləşmələrini və sadə sözləri təkrar edir. | Dinlədiyi söz, söz birləşmələrini və sadə sözləri təkrar edir. | Dinlədiyi söz və söz birləşmələrini düzgün tələffüz edir. | Cümlələri və nitq etiketlərini düzgün tələffüz edir. | Kiçikhəcmli nitq nümunələrini düzgün tələffüz edir | Müxtəlif nitq nümunələrini düzgün tələffüz edir. | Nitqində tələffüz qaydalarına yiyələndiyini nümayiş etdirir. |
| | | | Şəkildə əks olunan əşyaları | Şəkildə əks olunan əşyaları | Müxtəlif məzmunlu | Müxtəlif məzmunlu | Zaman və məkanla bağlı | Müxtəlif məzmunlu | Müxtəlif süjetli şəkillər |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2** | **2** | **1** | və ətrafdakıları (ailə, məktəb) adlandırır. | və hadisələri (geyim, hava) adlandırır. | şəkillərdə əks olunan əşyaları adlandırır. | şəkillərdə əks olunan əşya və hadisələri adlandırır. | anlayışları adlandırır. | şəkillərdə əks olunan əşya, hadisə və situasiyaları adlandırır. | üzrə ünsiyyət qurur. |
| **2** | **2** | **2** | Adlandırdığı əşyaların əlamətlərini (həcm, rəngi, forma) sadalayır. | Adlandırdığı əşyaların əlamətlərini (forma və kəmiyyət) sadalayır. | Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyəti, görünüşü) sadalayır. | Şəkildə əks olunan əşya və hadisələri öyrəndiyi sözlər əsasında təsvir edir. | Nitq etiketlərindən mövzuya uyğun istifadə edir. | Əşya, hadisə və situasiyaların əlamətlərini təsvir edir. | Müxtəlif situasiyalara öz münasibətini bildirir. |
| **2** | **2** | **3** | Şəkildə əks olunan əşyaları və ətrafdakıları öyrəndiyi sözlər əsasında təsvir edir. | Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur. | Kiçikhəcmli dialaoqlarda iştirak edir. | Dialoqlarda nitq etiketlərindən istifadə edir. **Az-d. 1.2.3.** | Müxtəlif mövzulu dialoqlarda iştirak edir. **Az-d. 1.2.2.** | Mövzu ilə bağlı fikirlərini müxtəlif formada ifadə edir. | Müxtəlif mövzularda müzakirələr (təbiət, cəmiyyət, ailə, məktəb) aparır. |
| **2** | **2** | **4** | Öyrəndiyi söz, söz birləşmələri və nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur. | Nitqində yeni söz və ifadələrdən düzgün istifadə edərək ünsiyyət qurur. | Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir. | Öyrəndiyi nitq modellərindən məqsədyönlü istifadə edir. | Müzakirələrdə mövzu ilə bağlı fikirlərini bildirir. | Fikirlərini müqayisələr aparmaqla izah edir. | Müxtəlif mövzulu müzakirələrdə iştirak edir. **Az-d.:1.2.2.** |
| | | | Hərf, hərf birləşmələri və | Kiçikhəcmli mətnlərdə yeni | Kiçikhəcmli mətnləri | Oxuduğu mətnin məzmununa aid | Söz və ifadələri morfoloji | Mətndəki əsas fakt və | Söz və ifadələri |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **3** | **1** | **1** | sözləri düzgün oxuyur. **Mus. :3.1.1.** | söz və ifadələri düzgün oxuyur. **Mus. :3.1.1.** | düzgün və sürətli oxuyur. | suallar tərtib edir. | xüsusiyyətlərinə görə qruplaşdırır. | hadisələri seçir, qruplaşdırır. | qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir. |
| **3** | **1** | **2** | Kiçikhəcmli mətnləri düzgün intonasiya ilə oxuyur. **Az-d.: 2.2.1.** **Mus. :3.2.1.** | Mətndəki yeni söz və ifadələri lüğətdən istifadə edərək oxuyur. **Az-d.: 2.2.1.** | Mətndəki cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. **Az-d.:2.2.1.** | .Oxuduğu mətndə söz və ifadələri seçir və qruplaşdırır. | Mətni uyğun ton, temp, ritm və fasilə ilə oxuyur. **Az-d.: 2.2.1.** | Mətni məzmununa uyğun intonasiya ilə oxuyur. | Mətndəki müxtəlif konstruksiyalı cümlələri düzgün oxuyur. |
| **3** | **1** | **3** | Kiçikhəcmli mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir. | Oxuduğu mətnin məzmununa uyğun suallara cavab verir. | Oxuduğu mətndə fakt və hadisələri müəyyən edir. **Az-d.:2.2.3.** | Mətndəki əsas fikri müəyyənləşdirir. | Oxuduğu mətnin məzmununu məntiqi ardıcıllıqla danışır. | Oxuduğu mətnin məzmununu ümumiləşdirərək şərh edir. | Oxuduğu mətnin məzmununa münasibətini bildirir. |
| **4** | **1** | **1** | Hərf, hərf birləşmələri və sözləri düzgün yazır. **Az-d.: 4.1.4.** | Dinlədiyi sözləri, söz birləşmələrini və sadə cümlələri düzgün yazır. | Şəkil üzrə kiçikhəcmli yazılı mətn qurur. **Az-d.: 4.1.1.** | Verilmiş cümlələr əsasında kiçikhəcmli yazılı mətn qurur. **Az-d.: 3.1.1.** | Verilmiş mövzu üzrə fikirlərini yazılı ifadə edir. | Dinlədiyi mətnin məzmununu ardıcıl yazır. | Fikirlərini müxtəlif formalarda (inşa, esse, hekayə) ifadə edir. **Az-d.:1.2.1.** |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **4** | **1** | **2** | Öyrəndiyi söz birləşmələri və cümlələri düzgün yazır. **Az-d. 4.1.4.** | Müşahidə etdiyi əşya və hadisələrin əlamətlərini yazır. | Sözləri orfoqrafiya qaydalarına uyğun yazır. | Orfoqrafiya işarələrindən düzgün istifadə edir. | Müxtəlif əşya və hadisələri yazılı təsvir edir. | Məlumat xarakterli mətnlər yazır. **Az-d.: 3.1.4.** | Fakt və hadisələrə yazılı münasibət bildirir. **Az-d.6 1.2.4.** |
| **4** | **1** | **3** | Sadə məktublar yazır. **Az-d. 3.1.4.** | Təsvir xarakterli məktub yazır. **Az-d. 3.1.4.** | Sadə elanlar yazır. **Az-d. 3.1.4.** | Sadə afişalar yazır. | Dəvətnamə və açıqca yazır. | Tərcümeyi hal və və ərizə yazır. **Az-d. 3.1.4.** | Müxtəlif anket formaları yazır. **Az-d. 3.1.4.** |

**Az-d.- Azərbaycan dili**

**Mus.- Musiqi**

# 2.Təlim strategiyaları

## 2.1. İkinci xarici dil təliminin təşkilinə verilən əsas tələblər

**İkinci xarici dil təliminin təşkili prinsipləri**

**Təlimin idarə olunması prinsipləri**

***Ümumi prinsiplər:***

- ***psixoloji müsbət dil mühitinin*** yaradılması və mənfi çalarların aradan qaldırılması;
- ***nəticəyönümlü*** təlim atmosferinin yaradılması və şəxsi dəyərlərin formalaşdırılması;
- ***məzmun xətləri və standart*** əsasında təlimin real həyatla bağlılığının yaradılması;
- ***təlim prosesinin şagirdlərin meyl və maraqları*** üzərində qurulması;
- ***bərabərhüquqlu təlim*** və ***qarşılıqlı təsir*** nəticəsində dil mühitinin yaradılması;
- ***inkişafyönümlü*** *və* ***dəstəkləyici mühitin*** *yaradılması;*
- ***intensiv kommunikasiya*** prosesinin təşkil olunması;
- ***nizam-intizam, məsuliyyət*** hissini, qarşılıqlı ***hörməti*** artırmaq;
- ***vaxtın düzgün bölüşdürülməsi*** və ondan səmərəli istifadə olunması;
- ***şagird nailiyyətlərininn qiymətləndirməsininin*** aparılması.

***Xarici dil fənni təliminin idarə olunmasının xüsusi prinsipləri:***

- ***şagirdlərlə işin***, sinfə giriş və çıxışın, sinifdənxaric işin xarici dildə aparılması,
- ***xarici dil üzrə qrammatikanın, fonetikanın, lüğət işinin*** məzmun xətləri (dinləyib-anlama, danışma, oxu,yazı) daxilində öyrədilməsi;
- funksional dil materiallarının tərkibində müvafiq ***qrammatik materialın*** nəzərə alınması;
- ***müəllimin tələffüzünün***, danışıq sürətinin şagirdlər üçün nümunə olması;
- ***audio-video vasitələrdə*** səslənən tələffüzün müəllimin tələffüzündən çox fərqli olmaması;

- ***leksik vahidlərin*** nitqdə sərbəst və sürətli işlədilməsinə nail olmaq üçün şagirdlərə eyni bir situasiyaya aid müxtəlif materialların təqdim olunması;
- ***seçmək, öyrənmək və istifadə etmək*** üçün geniş söz ehtiyatının nəzərdə tutulması;
- ***dərslərin planlaşdırılması*** zamanı müəyyən tarixi gün, bayram və hadisələrin tarixlərinin nəzərə alınması;
- ***kommunikativ və interaktiv metodlarla*** xarici dillərin öyrənilməsi, şagirdlərin reseptiv, produktiv, interaktiv və mediasiya bacarıqlarının inkişaf etdirilməsi;
- ***idraki, metakoqnitiv, koqnitiv və sosial-affektiv strategiyaların tətbiqi;***
- ***kooperativ təlimdə qruplar, cütlər və fərdi*** işlərin təşkili;
- ***müxtəlif vizual əyaniliklərin*** təmin olunması;
- ***tapşırıqlı təlimlə*** dilin öyrənilməsi;
- ***problemlər üzərində*** təlimlə dilin öyrənilməsi;
- dilin öyrənilməsində ***İKT***-dən istifadə olunması;
- ***autentik materiallardan*** təlimin tətbiqində istifadə olunması;
- şagirdlərdə diqqətlə dinləmək, danışmaq və ***müşahidə qabiliyyətlərinin*** formalaşdırılması;
- ***kontekst daxilində fikrini sərbəst ifadə etmək üçün*** imkanın yaradılması;
- ***kommunikativ vərdişlərin*** əldə olunması üçün real həyatla bağlılığın təmin olunması.

## Məzmun xətləri üzrə xarici dilin təliminə verilən tələblər

**Dinləyib-anlama**

- seçilən audio-vizual materialların səviyyəsinin şagirdlərin dil üzrə hazırlıq səviyyəsinə uyğun olması;
- seçilən materialın şagirdlərin yaş səviyyəsinə uyğun olması;
- materialın tərkibində olan naməlum elementlərin şagirdlərin çevik başa düşə bilməsi üçün onların qısaldılması və ya asanlaşdırılması;
- müxtəlif nitq vahidlərinin-nitq etiketləri və ifadələrinin əsasında dialoq və monoloqların mənimsənilməsi;
- audio-video tipli vasitələrin tətbiqi;
- müxtəlif tipli mətnlərdən (təsviredici və nağılvari hekayələrdən) istifadə;

- seçilən materialın şagirdlərin gündəlik tələbat və maraqlarına uyğun olması;
- seçilən materialda dili öyrənilən ölkə reallıqlarının nəzərə alınması;
- dinləyib-anlama üçün seçilən materialın, əsasən, dil daşıyıcısının səsi ilə lentə alınması;
- autentik materialların çoxluğuna yer verilməsi.

**Danışma**

- şagirdlərdə qrammatikanın, lüğətin, anlamanın, düzgün tələffüzün və axıcı nitqin formalaşması;
- yaradıcı nitq fəaliyyətinin formalaşdırılması və inkişafı üçün seçilən mövzuların aktual və şagirdlərin maraqlarına uyğun olması;
- şagirdlərdə yaş səviyyələrinə uyğun ümumiləşdirmə, müqayisə, təhlil, əlaqələndirmə bacarıqlarının formalaşdırılması;
- şifahi nitqin inkişaf etdirilməsi üçün xüsusi tapşırıqların nəzərdə tutulması;
- şagirdlərdə təqdimat etmə bacarıqlarının inkişaf etdirilməsi.

**Oxu**

- təlimin ilk mərhələsindən etibarən şagirdlərdə oxu texnikasına düzgün yiyələnmək üçün səsli və ya səssiz oxudan istifadə edilməsi;
- oxu materiallarının sinifdən-sinfə keçdikcə genişləndirilməsi;
- şagirdlərin müstəqil oxu qabiliyyətlərinə yiyələnə bilmələri üçün müxtəlif növ oxu materiallarından istifadə olunması;
- autentik materialların istifadəsinə geniş yer verilməsi;
- oxu üçün seçilən materialların şagirdin maraq və tələbatını təmin etməsi;
- oxu materiallarının müasir dövrlə səsləşməsi.

**Yazı**

- yazının nitq fəaliyyətinin digər növləri (dinləyib-yazma, danışıb-yazma, oxuyub-yazma) ilə əlaqələndirilməsi;
- yazı zamanı kəmiyyət və keyfiyyət münasibətlərinin - fikirlərin ətraflı, səlis və səhvsiz yazılmasının nəzərə alınması;
- yazının hesabat, təsvir və s. xarakterli növlərinin nəzərə alınması;

- tədqiqat mövzularının şagirdlərin maraq və yaş səviyyələrinə uyğun seçilməsi.
- hər hansı mövzu ilə bağlı yazılı təqdimat etmə bacarıqlarının inkişaf etdirilməsi.

## 2.2. İkinci xarici dil təliminin təşkilində istifadə olunan forma və üsullar

Müasir dövr xarici dillərin öyrənilməsini zərurətə çevirib. İndi müstəqil Respublikamızın müxtəlif dillərdə danışan, dünya arenasına çıxmağı bacaran, müxtəlif səviyyələrdə öz sözünü deyə bilən gənclərə böyük ehtiyacı var. Bu məqsədlə təhsilimizdə aparılan dəyişikliklər, yeni təhsil proqramlarının(kurikulumların) işlənib istifadəyə verilməsi məsələnin həll olunmasını tənzimləməyə xidmət edən amillərdəndir. Ölkəmizdə dünya təhsilinə, Avropa standartlarına müvafiq hazırlanan məzmun standartları təhsilimizin yeniləşməsinə, beynəlxalq aləmə inteqrasiya olunmasına müsbət zəmin yaradır. Bu standartların reallaşmasına xidmət edən forma və üsullar şagirdlərin müstəqil, yaradıcı işləməsini, təşəbbüskar olmasını, müxalif fikrə hörmətlə yanaşmaq və ünsiyyət bacarıqlarının, onlarda liderlik qabiliyyətinin formalaşdırmasını məqsəd kimi qarşıya qoyur.

Siniflər üzrə müəyyən olunmuş məzmun standartlarının tətbiqində təlimin təşkilinin forma və üsullarının düzgün seçilməsinin böyük əhəmiyyəti var. Düzgün seçilmiş forma və üsullar öyrənənlərin xarici dil təliminə marağını artıracaq, ünsiyyətə girməyə, fikirlərini sərbəst ifadə edə bilməyə zəmin yaradacaq, onlarda tərəddüd hissini, hazırcavablıqla, cəldliklə, çevikliklə əvəz edəcək və onlar asanlıqla xarici dildə ünsiyyət yaradacaqdır.

Seçilən forma və üsullar müəllimləri yaradıcı axtarışa istiqamətləndirdiyi kimi, öyrənənləri də yüksək fəallığa, xarici dildə fikrini ifadə etməyə, qorxu, tərəddüd, ehtiyat hisslərini aradan qaldırmağa və öyrəndikləri dildə danışmağa sövq edəcəkdir.

Təlim prosesində müxtəlif üsulların seçilməsinin üstünlüyü ondadır ki, bu zaman heç kəs passiv qalmır, hamı həvəslənir, nəyi bacarırsa, deməyə səy göstərir. Bu da xarici dil təlimində ən vacib şərtlərdən hesab edilir.

Xarici dil təlimində standart dərs formaları ilə yanaşı, dərs – müzakirə, dərs – konfrans, dərs – tok-şou, dərs – ekskursiya, inteqrativ dərs və s. bu kimi qeyri – standart formalarından da istifadə edilə bilər.

Bu standart və qeyri-standart dərs formaları dərs-müzakirə, dərs–mətbuat konfransı, tok-şou, dərs – ekskursiya, inteqrativ dərslər , “Beyin fırtınası”, BİBÖ , auksion, klaster,

rollu oyun, dəyirmi masa, Venn diaqramı, insert, ziqzaq, karusel, akvarium, qərarlar ağacı, layihələrin hazırlanması, söz assosiasiyası və s. ümumi və tam təhsil pilləsində də konsentrik prinsipə müvafiq istifadə oluna bilər.

### *Təlimin təşkili formaları*

**Kooperativ təlim**. Bu forma şagirdyönümlü xarakter daşıyaraq təlimin müvəffəqiyyətlə nəticələnməsinə xidmət edir. Təlimin bu forması kiçik və böyük komandalardan ibarət olub müxtəlif səviyyələri və qabiliyyətləri aşkar edir. Şagirdlər ikinci dilin qazanılmasında bilik və bacarıqlarını istənilən mövzu ətrafında genişləndirib birgə fəaliyyət əsasında həyata keçirirlər. **Kooperativ təlim** interaktiv təlim şəraitində, yəni şagirdlərin bir-birilərinə qarşılıqlı təsiri nəticəsində həyata keçirilir. Bu zaman ***fərdi, cütlərlə, qruplarla, böyük və kiçik qruplarala*** iş formalarından geniş istifadə edilir. Bu zaman müəllim hər hansı bir iş formasını seçən zaman mütləq qrup işi qaydalarını xatırlatmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün şagairdlərin yaradıcılığından istifadə etməlidir. Kooperativ dərslərdə şagirdlərin istedadları tez aşkar olunur.

***Kooperativ təlim prosesində əldə olunan nəticələr:***

Fərdlərarası inkişafa nail olmaq və öyrənmədə fəal iştirak etmək, əks-əlaqə üçün daha çox imkanlar qazanmaq və məzmunu daha dərin anlamaq, tapşırıqların həllində yüksək motivasiya yaratmaq, məzmunda aktiv və konstruktiv iştirak etmək, özü üzərində işləmək, qrup konfliktlərini həll etmək, qarşılıqlı təsir bacarıqlarını təkmilləşdirmək, öyrənmə zamanı təcrübələri ilə şagird maeağını artırmaq, şifahi kommunikasiya bacarıqlarını inkişaf etdirmək tələb olunur.

**Böyük və kiçik qruplarda iş**. Şagirdlər qrupda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunur. Praktik iş prosesində verilmiş tapşırığın fəal müzakirəsi təşkil edilir, onun həlli üçün fikir mübadiləsi aparılır, mühakimə yürüdülür, nəzəri materiallar praktik yolla mənimsənilir. Bu iş formasında şagirdlərin aşağıdakı bacarıqlara yiyələnməsi üçün real şərait yaranır: ünsiyyət saxlamaq, fikir mübadiləsi aparmaq, dostunun fikrinə hörmətlə yanaşmaq, problemləri birlikdə həll etmək, kollektiv

fəaliyyətə uyğunlaşmaq, sağlam rəqabət aparmaq və verilən vaxtdan səmərəli istifadə etmək. Onlar qruplara ayrılmaqla aralarında aşağıdakı kimi vəzifə bölgüsü aparırlar:

***1.Qrup lideri;***

***2.Məlumat toplayan;***

***3.Qeydlər aparan;***

***4. Vaxta nəzarət edən;***

***5. Qrup işini təqdim edən.***

Şagirdlər qrup işi aparılarakən bir-birilərinə diqqətlə qulaq asmalı, məlumat mübadiləsi aparmalı, məsuliyyətlə bir-birilərinə kömək etməlidirlər.

C**ütlərlə iş.** Dərs prosesində şagirdlər iki-iki işləyir, təlim tapşırıqlarının yerinə yetirilməsində birgə fəaliyyət göstərirlər.Bu onlara bir-birini daha yaxşı başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.

**Fərdi iş.** Bu iş formasında müəllim şagirdlərin fərdi istedadını üzə çıxarmaq üçün müxtəlif vasitələrdən istifadə edir, uyğun tapşırıqlar seçir. Kollektivdə işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlər arasında mütəşəkkil ünsiyyətin yaradılması və inkişafı istiqamətində iş aparılır. Müəllim fərdi iş forması seçərkən hər bir şagird üçün ayrı sual və ya tapşırıqlar tərtib edir.

***İnteqrativ təlim forması*** üzrə keçilən dərslər iki fənn müəllimi tərəfindən idarə edilir. Mövzu hər iki fənn üçün ortaq olur. Dərs növbə ilə gah bir, gah da digər fənn müəllimi tərəfindən aparılır. Xarici dil dərslərini biologiya, musiqi, ana dili dərsləri ilə inteqrativ aparmaq mümkündür. Xarici dil dərslərində tətbiq edilən təlim üsulları şagirdlərin kommunikativ nitq bacarıqlarının, onların tənqidi təfəkkürünün inkişafına yönəldilir.

Ümumiyyətlə, müasir dünya təcrübəsini özündə əks etdirən yeni fənn kurikulumlarında, o cümlədən xarici dil kurikulumlarında müəyyən edilmiş təlim nəticələrinin, məzmun standartlarının reallaşması interaktiv metodların, çevik üsulların tətbiqi olmadan mümkün deyildir. Yeni məzmunun tələb etdiyi təlim metodları müəllim və şagird fəaliyyətinin mahiyyətini də dəyişir: müəllim, daha çox, istiqamət verən,

tənzimləyən, şagird isə axtaran, tədqiqat aparan, öyrənmək üçün əməkdaşlıq edən rolunda çıxış edir. Məhz belə yanaşma nəticəsində sinifdə demokratik mühit, müəllim – şagird münasibətləri, pedaqoji əməkdaşlıq yaranır. Şagird təhsil prosesinin subyektinə çevrilir.

### *Təlimin təşkilinin metod və üsulları*

Müəllim seçdiyi standart və ona uyğun məzmun xəttinə əsasən təyin etdiyi məqsədlərə çatmaq üçün mövzuya uyğun metod və üsulları təyin edir. Dərsin ilk mərhələsində motivasiya xarakterli ən çox işlənən sinif qızdırıcılarıdır ki, bunlara bəzən "***buzqıranlar***" deyirlər.

***"Buzqıranlar".*** Müəllim bu metoddan sinfi tez ələ almaq, fəallaşdırmaq və gərginliyi aradan götürmək, yeni dil mühiti yaratmaq üçün istifadə edir. "Buzqıranalar"a fiziki hərəkətlərlə oyunlar, iştirakçıların bir-biri ilə tanışlığı, dairədə zarafatlar, komplimentlər daxildir. Bu metoddan istifadə yorğunluğu, dərs prosesindəki mənfi enerjini azaldır. Situasiyadan asılı olaraq onu ***" Məndən sonra təkrar et", "Mən elə insanlara heyranam ki...", "mən kiməm", "Salamlama", "Tanışlıq",*** "A***dlar və xarakterlər***" və s. adlandırmaq olar. Məsələn, ***"Adlar və xarakterlər"*** - dən istifadə zamanı iştirakçılar öz adlarının baş hərfi ilə başlayan sifətdən istifadə edərək özlərini təqdim edirlər**:** ***"Ağıllı Ayaz", "Peşəkar Pərviz"*** və s.

Bu strategiya şagirdlərin bir-birinə hörmət və inamını inkişaf etdirir, sağlam ünsiyyət və dəstəkverici şərait yaradır. Bu mərhələdə şagirdlər ən çox dinləyib-anlama və danışıq vərdişləri qazanırlar.

***"Əqli hücum".*** Bəzən ***"Beyin fırtınası"*** kimi də adlandırılan bu üsulun üstünlüyü ondadır ki, burada təcili sürətdə ümumi məqsədlə bağlı müxtəlif ideyalar yaradılır, əsasən, dərsin motivasiya mərhələsində tətbiq olunur. Bu zaman cavablar bir-birini təkrar etməməlidir. Bu metod istifadə etməklə şagirdlərdən verilən mövzu ətrafında ideyalar tez bir zamanda toplanır, siyahıya alınır və ya ***"Əqli Xəritə", "Hörümçək Toru", "Salxım", "Balıq sümüyü"*** üzərində göstərilir. Təkliflər toplanarkən müzakirə və tənqidlər istisna edilir. Bu fəaliyyət növü 5-10 dəqiqə çəkir. Məsələn, ***"Ətraf aləm nədir?", "Sağlamlıq nə deməkdir?" "İdman nə üçün lazımdır?", "Məktəb sənə necə kömək edir?" və s.***

Bu metodun tətbiqi zamanı müəllim şagirdlərin qabiliyyətlərini fərqləndirir, onların verilən mövzu ətrafında nə düşündüklərini, nə dərəcədə məlumatlı olduqlarının üzə çıxarır.

Bu metod şagirdlərdə dinləyib-anlama və danışıq vərdişləri yaradır. Şagirdlər "bəli", "xeyr" cavablarından uzaqlaşmalı, dili geniş aspektdə işlətməlidirlər. Yadda saxlamaq lazımdır ki, bu metoddan istifadə edərkən müəllim razılaşmalıdır ki, səhv fikir yoxdur, müxtəlif fikir var. Bu üsulun tətbiqi ilə şagirdlər tədqiqat aparmaq yollarını öyrənir və axtarışlar aparır, müstəqil düşünmə qabiliyyətlərini nümayiş etdirirlər. Bu onların tənqidi təfəkkürlərinin inkişafına müsbət təsir göstərir.

Məsələn, şagirdlər konkret mövzu və ya problem haqqında ilk ideyalarını səsləndirir və onları qeyd edirlər. Burada əsas məqsəd şagirdlərin mümkün qədər çox fikir söyləməsinə nail olmaqdır. Fikirlər qeyd olunduqdan sonra onlar qruplarda təhlil və təsnif edilir, seçilmiş ideyaların müzakirəsi aparılır.

***Dinləyib-anlama üzrə***

**Dinləyib-anlama** bacarıqları avtomatik inkişaf etdirilməlidir. Necə olur olsun, dinləyb-anlama komunikativ prosesin ən mühüm aspekti olaraq praktikada tətbiq olunmağa ehtiyacı vardır. Dinləyib-anlama fəaliyyəti zamanı müxtəlif produktiv vərdişlər qazanılır. Dinləyib-anlamanın müxtəlif tiplərindən asılı olaraq metod və üsullar da müxtəlif olur.

***Spesifik dinləmə*** zamanı şagirdlər cavabını bilmək istədikləri məlumat haqqında spesifik suallar verirlər. ***"Sual-cavab", "Səhvi tap", "Məndən sonra de", "İnformasiya boşluqları", "Fərqi tap"və s.***

***İntensiv dinləmə*** odur ki, şagirdlər müəyyən məlumat əldə etmək üçün hansısa bir mühazirəyə qulaq asırlar və ya müəllim tərəfindən səsləndirilmiş hekayəni dinləyirlər.

***Ekstensiv dinləmə*** zamanı isə şagirdlər disk, CD üzərində olan çalışmalara, musiqi parçalarına və ya radioda hər hansı bir hekayəyə qulaq asırlar.

Şagirdlərin verilən qaydaları, elanları, filmləri, sualların cavablarını başa düşməyə ehtiyacları vardır. Effektli dinləyib-anlama tədris prosesində düzgün canlı tələffüz və intonasiyaya əsaslanır. Bunun üçün disk, CD çalışmaları bu vərdişin qazanılmasında mühüm rol oynayır, onlar bu üsulla yazılı, şifahi tapşırıqları cəld yerinə yetirməyi öyrənirlər. Dinləmənin mahiyyəti odur ki, müəllim hər hansı bir situasiyanın əsas ideyasını öyrənmək istəyir. Bu zaman aşağıdakı texnologiyalardan istifadə olunması faydalı hesab edilir:

- ***İnformasiya boşluqları***
- ***Fiziki hərəkətə çağırış***

- ***Məndən sonra de***
- ***Səhvimi düzəlt***
- ***Şəkilli imla***
- ***Musiqili imla***
- ***Yarımçıq hekayə***
- ***Təsvir et və şəklini çək***
- ***Zəncirli hekayə***
- ***Səhvlərlə hekayə***
- ***Auksion***

***İnformasiya boşluqları*** eyni mətnin və ya məlumatın iki ayrı- ayrı vərəqdə müəyyən boşluqlarla verilməsidir. Bu üsulun tətbiqi zamanı iki şagird iştirak edir və bir şagirdin vərəqində verilməyən məlimat digər şagirdin vərəqində verilir. Bunun üçün mətni hər iki şagird diqqətlə dinləyəməli, fikirləri izləməli və ardıcıl oxumalıdırlar. Bu metodun tətbiqi nəticəsində əməkdaşlıq və bir-birini gözləmək tələb olunur.

***Məndən sonra de*** metodu ilə müəllim istənilən bir mətni qısa şəkildə söyləyir və bitdikdən sonra şagirdlər mətni yadda saxladıqları kimi şərh edirlər. Bunun üçün şagirdlər mətni diqqətlə dinləməli və məlumatı anlamalıdırlar.

***Səhvimi düzəlt*** ən uğurlu dinləyib-anlama metodlarından biridir. Müəllim və ya hər hansı bir şagird mətni bir-iki dəfə oxuyur, şagirdlərin diqqətini sual-cavab və mətnə uyğun şəkillərlə yoxlayır. Sonra qəsdən mətni səhvlərlə deyir, diqqətlə qulaq asan şagirdlər səhvləri düzəldir.

***Şəkilli imla*** bu metod xarici dilin vizual vasitələrlə mənimsənilməsində çox böyük rol oynayır və şagirdlərin düşüncə, məntiqi təfəkkürünü möhkəmləndirir. Müəllim mətni oxuduqdan sonra ona aid şəkilləri qarışıq formada lövhəyə düzür, diqqətlə dinləyən şagirdlər şəkilləri hadisələri baş verməsi ardıcıllığı ilə sıraya düzür.

***Musiqili imla*** istənilən bir musiqi parçasını səsləndirir və şagirdlər dinləyərək yadda qalan şəkildə onu təkrar edir və ya verilmiş vərəqlərdə yazırlar. Şagirdlərin musiqi parçasının sözlərini tam mənimsəyənə qədər bu fəaliyyət bir neçə dəfə təkrar edilir.

***Yarımçıq hekayə*** müəllim mətni oxuduqdan sonra yarımçıq hekayəni şagirdlərə iş vərəqlərində paylayır və ikinci mərhələdə şagirdlər mətni yadda saxladıqları kimi tamamlayırlar. Qrupların təqdimatında düzgün cavablar uzlaşdırılır və ən yaxşı

tamamlanmış mətni təqdim edən qrup oyunun qalibi olur. Bu metodla şagirdlər çoxlu yeni söz öyrənirlər.

***Təsvir et və şəklini çək*** bu üsul ilə müəllim mətni asta şəkildə oxuyur və şagirdlər diqqətlə dinləyərək mətni verilmiş ağ vərəqlərdə təsvir edirlər, ən yaxşı cavablar təqdim edilir və düzgün şəkilli mətn çəkən qrup oyunun qalibi olur.

***Kim çox səhv tapar?*** üsulu ilə müəllim hansısa məşhur bir hekayəni götürüb şagirdlərlə birgə oxuyur. Hər hansı bir şagird hekayəni bildiyi kimi söyləyir və digər kiçik qruplar onun etdiyi səhvləri sayır. Hansı qrup çox səhv tapsa, o qrup oyunun qalibi hesab edilir. Bu üsul nəticəsində şagirdlər izah, şərh, təsvir və illüstrasiya etməyi, fikir söyləməyi öyrənirlər.

***Zəncirli hekayə*** bu üsul vasitəsilə şagirdlər bir sıraya düzülərək hər hansı bir mövzu ətrafında ardıcıl hekayə qururlar: 1-ci şagird iki söz, 2-ci şagird 3 söz, 4-cü şagird 4 söz və belə davam edərək cümlələr qurur və hekayəni tamamlayırlar. Bunun uğurla başa çatması üçün şagirdlər bir-birlərini diqqətlə dinləməlidirlər ki, mətni mənaca ardıcıl və düzgün tamamlasınlar.

***Auksion*** üsulundan əşya və hadisələrin xüsusiyyətlərini öyrənməklə dinləyib- anlama bacarıqlarının inkişafı üçün istifadə olunur. Bu üsul, əsasən, təlimin ilk mərhələsində tətbiq edilir. Məsələn, müəllim əşya və ya hadisəni təqdim edir, hamı növbə ilə onun xüsusiyyətləri barədə fikir söyləyir. Fikir söyləmək üçün 2-yə qədər sayılır. Əgər 2-dən sonra şagirdlər tərəfindən heç bir xüsusiyyət deyilmirsə, əşya “satılmış” hesab olunur. Bu üsuldan dərsin motivasiya və nəticələrin çıxarılması mərhələsində daha səmərəli istifadə oluna bilər.

***Fiziki hərəkətlə çağırış.*** Bu, dinləyib-anlama və danışıq fəaliyyətinin ən uğurlu üsullarından biridir. Əvvəlcə, müəllim mətni oxuyaraq məzmunu hərəkətlərlə nümayiş etdirir. Sonra şagirdlərə komanda verilir ki, bu hərəkətləri mətni oxuyarkən yerinə yetirsinlər. İkinci mərhələdə şagirdlər iki qrupa bölünür və birinci qrup mətni oxuyaraq ikinci qrupa məzmunu hərəkətlərlə göstərmək barədə komanda verir və ya əksinə, ikinci qrup hərəkətləri nümayiş etdirir, birinci qrup hərəkətləri adlandırır və ifadə edir. Bu üsul yaddaşın möhkəmlənməsinə kömək edir və fiziki tərbiyə fənninə inteqrasiya olunaraq şagirdlərin mövzunu bütöv şəkildə mənimsəməsinə xidmət göstərir.

***Danışma fəaliyyəti***

Danışma fəaliyyəti vərdişləri xarici dildə kommunikasiya yaradaraq axıcı, bəsit və uyğunluğu ilə şagirdlərə sərbəst düşüncə və güc verir. Düzgün, səliqəli danışıq dilində şagirdlər lüğət və qrammatikanı düzgün işlətməli, qarşılıqlı düzgün əlaqə yaratmalı, dəqiq vaxt müəyyənləşdirməlidirlər. Axıcı danışıq isə əksinə, heç bir vaxt qoymadan, qrammatik və lüğət düzgünlüyünə əsaslanmayan, sürətli danışıq dilidir. Bu gün hər bir müəllim şagirdlərdə əvvəlcə səliqəli, düzgün, sonra axıcı danışıq vərdişlərini aşılamalıdır. Burada fəaliyyət növü və şagirdin səviyyəsi də nəzərə alınmalıdır.

Danışma fəaliyyəti ilə bağlı texnologiyalar aşağıdakılardır:

***"Cütlükdə düşün və paylaş", "Daxildə və xaricdə" , "Ziqzaq", "Rollu oyun", "Söhbət kartları", "Müsahibə", "Müzakirə", "Mətbuat", "Debat", "Dialoq", "Şəkillərin təsviri", "İnformasiya boşluqları", "Dəyirmi masa", "Dairəvi söhbət "*** və s**.** Xarici dil təlimində standart dərs formaları ilə yanaşı, dərs – müzakirə, dərs – konfrans, dərs – tok-şou, dərs – ekskursiya, inteqrativ dərs və s. kimi aşağıdakı qeyri-standart formalardan səmərəli istifadə edilə bilər:

- ***Şəkillərlə suallar və komanda***
- ***Şəkilli hekayə***
- ***Səhvimi tap***
- ***Müzakirədə olan obyektlərin rəsmini çəkmək***
- ***Söz assossasiyaları***
- ***Cümlələri şəkillərlə uzlaşdırmaq***
- ***Obyektləri şəkillərdə seçmək***
- ***Rollu oyun***
- ***Fərqi tap***
- ***Şifahi təsvirdən obyektlərin adlarını tapmaq***
- ***Tap görüm kim …***
- ***Bitməmiş hekayə***
- ***Problem vərəqlər***
- ***Müsahibə***
- ***Debat***
- ***Şifahi təqdimatlar***

- ***Mətnlərdə problemin həlli***

***Müzakirə*** öyrənilən dil materiallarının düzgün tətbiq edilməsinə real şərait yaradır. Müzakirənin səmərəli olmasında əsas şərt iştirakçıların hamısının müzakirədə fəal iştirakı, məsələyə maraq göstərməsidir. Burada mövzu seçimi mühüm məsələdir. O, aktual olmalı və müzakirə doğurmalıdır. Müzakirə formasının əhəmiyyəti ondan ibarətdir ki, bu prosesdə şagirdlərdə dialoq aparma, ünsiyyət qurma bacarıqları inkişaf edir, müəllim-şagird münasibətləri əməkdaşlıq xarakteri alır, sinifdə demokratik mühit formalaşır. Şagirdlərə öz fikir və mülahizələrini xarici dildə ifadə etmək üçün əlverişli şərait yaranır.

Müzakirə, əsasən, hər hansı bir bölmə yekunlaşdırıldıqdan sonra aparılır. Müzakirə zamanı şagirdlərin bilik səviyyəsi və lüğət ehtiyatı nəzərə alınmalıdır.

***Dərs–mətbuat konfransı*** tipli dərslərin keçirilməsində məqsəd şagirdlərin nitqini, sual vermək, mülahizə yürütmək, fikir mübadiləsi aparmaq bacarıqlarını inkişaf etdirmək, onların dünyagörüşlərini genişləndirməkdir. Bu dərslərdə şagirdlərin bir qismi jurnalist, digərləri isə qonaq kimi iştirak edirlər. Müəllim proses ərzində şagirdlərin fəaliyyətini müşahidə edir və dərsin sonunda onları qiymətləndirir.

***Tok-şou*** formalı dərslər şagirdlərin nitq, müstəqil və yaradıcı işləmək bacarıqlarının inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır. Əvvəlcədən sinifdə hazırlıq işləri aparılır, mövzu elan edilir. Şagirdlərdən bir neçəsi mövzu ilə bağlı müəyyən araşdırmalar aparmış "alimlər" kimi çıxış edərək problemlərə aid fikirlərini əsaslandırırlar. Sonra "alimlərin" nitqlərində işlətdikləri sözlərin mənaları üzərində iş aparılır, şagirdlərlə birlikdə problemin həlli yolları araşdırılır və ümumi nəticələr çıxarılır. Bu prosesdə müəllim, əsasən, istiqamətverici rolda çıxış edir.

***Dərs–ekskursiya*** belə dərslərdə şagirdlər öyrəndiklərini təkrar edir, sadə ümumiləşdirmələr aparırlar. Diqqət mərkəzində, onların nitq bacarıqlarının inkişafı dayanır. Proses isə belə aparılır: müəllim mövzunu elan edir, ayrı-ayrı şagirdlər gələn "qonaqlara" öz məktəblərini, şəhərlərini təqdim edir, digər şagirdlər isə yeri gəldikcə əlavələr edirlər. Müəllim şagirdləri müşahidə edir və qiymətləndirir.

***Klaster*** üsulundan hər dərsin əvvəlində şagirdlərin mövzu ilə bağlı hansı sözləri bildiklərini, həm də dərsin sonunda onların hansı yeni sözləri öyrəndiklərini aşkara çıxarmaq məqsədilə istifadə edilir. Bu üsulun tətbiqi şagirdləri mövzu haqqında açıq və

sərbəst düşünməyə, verilmiş əsas anlayışa aid söz assosiasiyalarını tapmağa, onların lüğət ehtiyatının zənginləşməsinə əhəmiyyətli təsir göstərir.

***Rollu oyun*** yeni problemə müxtəlif yanaşmaları əks etdirir. İştirakçılar cəmiyyətin müxtəlif üzvlərinin timsalında konkret bir problemi öz mövqelərindən qiymətləndirirlər. Bu üsulun tətbiqində əsas məqsəd şagirdlərin rəy söyləmək və fikirlərini əsaslandırmaq, tənqidi təfəkkürlərini inkişaf etdirmək, əməkdaşlıq etmək, digərlərinin fikrinə münasibət bəsləmək bacarıqlarının formalaşdırılmasıdır. Şagirdlərin bu oyunlardan əldə etdiyi başlıca keyfiyyət – emosional təəssüratdır. Emosional təəssürat dərsin gedişində informasiyanın, problemin səmərəli qavranılması üçün əsas rol oynayır.

***Dəyirmi masa*** üsulundan şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün istifadə olunur. Sinif daxilində bölünən hər qrupa 1 cümlə paylanır və həmin cümlələr qrupun digər üzvləri tərəfindən inkişaf etdirilir və nəticədə qrupların sayı qədər kiçik mətnlər alınır. Sonra bu mətnlər dinlənilir, müzakirə edilir və qiymətləndirilir.

***Dairəvi söhbət*** zamanı şagirdlər öz təcrübələrindən, hadisələrə münasibətlərindən və real həyatda gördükləri gerçəkliklər haqqında danışırlar.

***Tok-şou*** formalı dərslər şagirdlərin nitq, müstəqil və yaradıcı işləmək bacarıqlarının inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır. Əvvəlcədən sinifdə hazırlıq işləri aparılır, mövzu elan edilir. Şagirdlərdən bir neçəsi mövzu ilə bağlı müəyyən araşdırmalar aparmış "alimlər" kimi çıxış edərək problemlərə aid fikirlərini əsaslandırırlar. Sonra "alimlərin" nitqlərində işlətdikləri sözlərin mənaları üzərində iş aparılır, şagirdlərlə birlikdə problemin həlli yolları araşdırılır və ümumi nəticələr çıxarılır. Bu prosesdə müəllim, əsasən, istiqamətverici rolda çıxış edir.

***Debat*** iki əks möqedə duran və çapraz suallar ətrafında hər bir tərəfin öz mühakiməsi və özünü müdafiə etməsindən ibarətdir. Məsələn, ***Mən o vaxt şənlənirəm ki, ...***, ***Mən o vaxt yoruluram ki, ...***, ***Mən o insanları sevirəm ki , ...*** və s.

***Tap gör kim...*** oyunu diskusiya xarakterli üsuldur. Bu oyun vasitəsilə şagirdlər sinifdə üzərində ***Tap gör kim şəhərdə anadan olub, rəqs etməyi xoşlayır, yaxşı piano çalır, və s.*** yazılmış vərəqi götürüb bir-birilərindən soruşub çoxlu ad yazırlar və sonda ümumiləşdirərək ayrı-ayrı fərdlərin müxtəlif fəaliyyətlərini səsləndirirlər.

***Kateqoriyalar*** oyununda şagirdlər axıcı nitqə və geniş lüğətə yiyələnirlər. Şagirdlərə müxtəlif mövzular (uçan əşyalar, yaşıl əşyalar və s.) təqdim olunur bu mövzulara aid

fikirlər söyləmək tələb edilir. Şagirdlər müxtəlif kateqoriyaları ifadə edən bu mövzular ətrafında fikirlərini söyləyir, münasibətlərini bildirirlər.

***Fərqi tap*** şəkil üzrə söhbətdir. Bu üsulla iki şagird ayrı-ayrı vərəqlərdə olan şəkillərdəki fərqi söyləyir və çoxlu söz öyrənir.

***Qeybət*** üsulunda şagirdlər bir-birinin qulaqlarına hansısa bir qeybəti söyləyirlər. Sonda söyləyən əvvəl söyləyənin dediyini düz söyləyirsə, oyunun qalibi olur. Bu oyun zəncirvari şəkildə davam edir və s.

***Oxu üzrə***

Oxu nitq fəaliyyətinin növlərindən biridir. Oxu zamanı şagirdlər bilik qazanmaq həyatı öyrənmək, asudə vaxtını səmərəli keçirmək üçün onun imkanlarından istifadə edirlər. Sinifdə oxu məlumatverici xarakterdə olmalı, açar sözlər tapılmalı, şagird əsas ideyanı başa düşərək oxumalı və mənanı anlamalıdır. Oxu prosesində **qarışıq hekayə, səhv-düz cavablar, bəli-xeyr cavablar, başlıq seçmək, cümləni tamamlamaq, xüsusi suallar vermək, sinonim və ya antonimi tapmaq, səhv fikirləri tapmaq və s. kimi texnologiyalardan istifadə olunur.**

***Venn diaqramı*** üsulu əşya və hadisələrin müqayisəsində, onların fərqli və oxşar cəhətlərinin diaqramlaşdırılmasında istifadə olunur.

***İnsert*** (interaktiv qeydetmə sistemi) üsulu şagirdlərin tənqidi təfəkkürünün, oxu bacarıqlarının inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş bir texnologiyadır.

Xarici dil dərslərində informasiya xarakterli mətnlərin oxunması və oradakı zəruri informasiyanın seçilməsi mühüm əhəmiyyət kəsb edir. Oxu prosesində şagirdlər hər abzası aşağıdakı kimi işarələyir:

- məlumat başa düşülmür – (?)
- bildiyim məlumat – (√)
- yeni məlumat – (+)
- əvvəlkiləri inkar edən məlumat – (-)

Bu yolla bütün siniflə ümumiləşdirmələr aparılır, hansı məlumatın şagirdlərə nə dərəcədə aydın olmadığı, onların hansı məlumatı bilmədikləri müəyyənləşdirilir və izahat işləri aparılır.

***Kəsiklərlə oxu*** prosesində müəllim verilmiş mətni kağız üzərində kiçik hissələrə bölür və şagirdlər arasında paylaşdırır, hər kəs öz kəsiyində olan məlumatı bir neçə şagird

arasında bölür və eyni zamanda dostlarının kəsiyində olan məlumatları da öyrənir. Bu üsulla şagirdlər mətni qısa müddət ərzində əməkdaşlıq şəraitində mənimsəyirlər.

***Qarışıq cümlələr*** üsulundan istifadə zamanı mətndəki cümlələr qarışıq formada verilir və şagirdlər qruplarda birgə fəaliyyət nəticəsində mətndən götürülmüş qarışdırılmış abzas və ya cümlələri baş verən hadisələrin məntiqi ardıcıllığına uyğun sıraya düzürlər.

***Əks mənada oxu*** üsulu ilə iş şagirdlərin tənqidi və məntiqi təfəkkürlərini gücləndirir, mətndə verilmiş bütün cümlə üzvlərini əksinə qoyub oxuyurlar. Məsələn: "Qoca qadın balaca itini parka gəzməyə apardı". Əks məna: "Gənc oğlan böyük pişiyi ilə birlikdə evdə qaldı". Bu metodla şagirdlər həmçinin zəngin lüğət ehtiyatına malik olur və məntiqi tamamlama qabiliyyəti qazanırlar.

***Cümləni tap*** üsulunda müəllim mətni oxuyarkən şagirdlər aşağıdakı tələblərə uyğun fəaliyyət göstərir və müvafiq tapşırığı yerinə yetirirlər

a) ən gözəl cümləni seç; b) ən maraqlı fikri müəyyənləşdir; c) təəccüblü fikir ifadə edən cümləni seç; d) mətndəki əsas ideyanı ifadə edən cümləni tap; e) anlamadığın cümləni göstər; f) rast gəldiyin fakt və hadisələri xatırladan cümləni göstər; g) razılaşdığın və ya razılaşmadığın fikirləri ifadə edən cümləni göstər.

***BİBÖ (KWL )*** bu üsuldan yeni bilik öyrədən, ümumiləşdirici və yekunlaşdırıcı dərs tiplərində şagirdlərin oxu, dinləyib-anlama və sual qurma bacarıqlarının formalaşdırılması üçün daha çox istifadə edilir. Əsas məqsəd qazanılmış bilik və təcrübə ilə yeni biliklər arasında əlaqə yaratmaqdır. Bu zaman həm qrup, həm də cütlərlə işləmək mümkün olur.

***Yazı üzrə***

**Yazı** daha ciddi və dilin qanunlarına tabe olan bir fəaliyyət növü kimi başa düşülür. Şagirdlər yazı vasitəsilə öz fikirlərini daha geniş ifadə edirlər, qrammatik modellərdən və birləşmələrdən istifadə edərək eşitdiklərini düzgün yazırlar. Sərbəstliyi, plan tərtib etməyi, yeni proyektlər qurmağı, müxtəlif yazı nümunələrini tərtib etmək bacarığını əldə edirlər. Orta məktəbdə yazı fəaliyyəti texnologiyaları bunlardır:

- ***Təsviri yazılar***
- ***Hekayə, nağıl və şəkil üzrə yazılar***
- ***Analitik yazılar***
- ***Arqumentli yazı***
- ***Layihə yazıları***

- ***Məktublar***
- ***Məruzələr***
- ***Əməli yazılar***

***Təsviri yazılarda*** şagirdlər təbiət, bu və ya digər həyat hadisələrini özünəməxsus tərzdə təsvir edir, bu zaman öyrəndiyi yeni söz və ifadələrdən, cümlə modellərindən istifadə edir. Fikirlərini obrazlı ifadələrdən istifadə etməklə yazır.

***Hekayə, nağıl və şəkil üzrə yazılar*** buraya macəra, nağıllar, fantaziya, tarixi hadisələr, sirli hekayələr, elmi xəbərlər aiddir. Şagirdlər filmə tamaşa edib, yaxud başlarına gələn macəra haqqında öz fikirlərini yazırlar.

***Analitik yazılar*** bunlar ilkin və orta səviyyəli yazı bacarıqları əsasında mətndə səbəb və onun nəticələri, müqayisə və ziddiyyəti, əsas ideya və kiçik detallar haqqında olan yazılardır. Belə yazılarda şagirdlər özünün təhlil xarakterli fikirlərini müxtəlif formalarda ( beyin xəritəsi-“Mind Map”, qrafik cədvəllər-“Graphic organiser”, diaqramlar- “Diagrams” ) ümumiləşdirməklə ifadə edirlər.

***Arqumentli yazı*** hər hansı bir müəllifin fikrindən, statistik məlumatdan, sitatlardan istifadə olunmaqla hazırlanmış yazıdır. Belə yazılarda görkəmli şəxslərin kəlamlarından, sitatlardan istifadə edilir.

Yaradıcı yazı strategiyalarını həyata keçirmək üçün müxtəlif texnologiyalar işlədilir:

- ***Üç əlaqəsiz əşya***
- ***Səhvlərlə yazı***
- ***Şagirdən-şagirdə ötürülən yazı***
- ***Qrupdan-qrupa ötürülən yazı***
- ***Banan imlası***
- ***Sənin dediyin barədə mən nə düşünürəm***
- ***Şəkli yada sal***
- ***Arqument yazı***

***Üç əlaqəsiz əşya*** - üsulu ilə şagirdlər əlaqəsi olmayan üç əşyanın adını lövhədə yazır və onları bir hekayədə əlaqələndirirlər. Qruplar bir-birlərinə öz yazdıqlarını oxuyur və səhvlərini düzəldirlər. Bu strategiyalar şagirdlərdə düşüncə, qavrama, yaradıcılıq, əlaqələndirmə, müqayisə etmə kimi bacarıqların formalaşmasına imkan yaradır.

***Səhvlərlə yazı*** qrammatik bazanı möhkəmləndirən yazı texnologiyalarındandır. Bu üsulda şagirdlər hər hansı bir mətndə verilmiş səhvləri düzəldərək qrammatik biliklərini yada salır və yazı bacarıqlarını inkişaf etdirirlər.

***Cümlə tamamlama*** texnologiyası ilə şagirdlərin həm mətn haqqında sərbəst tənqidi təfəkkürü, həm də ətrafdakılar haqqında düşüncələri əks olunur.

- Mən indi hiss edirəm ki, ...
- Mənim ən qəmli günlərim ...
- Mən dərsdən sonra ....xoşlayıram.
- Mən arzu edirəm ki, ...
- Mənim ... ehtiyacım var.
- Ən vacib şey odur ki, ...
- Mən o vaxt şənlənirəım ki, ...

***Şəkli yada sal*** yazı texnologiyası istifadə zamanı müəllim mövzu üzrə hər hansı bir şəkli 1-2 dəfə ani nümayiş etdirir və şagirdlər şəkildə gördüklərini yazırlar. Bəzən müəllim mövuya aid müxtəlif obyektləri bir yerə toplayır, şagirdlər gördüklərindən yadda qalan obyektləri xatırlayaraq onun haqqında yazırlar.

***Xarakterlər xəritəsi ( Characterising map )*** texnologiyasından istifadə zamanı şagirdlər mətn haqqında bildiklərini diaqramlar üzərində yazırlar.

## 2. 3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

Xarici dil təlimində planlaşdırmanın iki növündən ( illik, gündəlik) istifadə edilir. İllik planlaşdırma perspektiv xarakter daşıyır, planlaşdırma müəllim tərəfindən tədris ilinin əvvəlində hazırlanır. Gündəlik planlaşdırma cari xarakter daşıyır və müəllimin gündəlik dərslərinin mahiyyətini və məzmunun əks etdirir.

Tematik planlaşdırma aparılarkən ilk növbədə reallaşdırılacaq məzmun standartları seçilir və ona uyğun təlim məqsədləri, tematika müəyyənləşdirilir. Bu zaman müəllimin gözlənilən nəticələrə çatmaq üçün müəyyənləşdirdiyi məqsəd və mövzular onun potensial imkanına və sinfinin səviyyəsinə uyğun hazırlanır.

**Xarici dil dərs planlarının xüsusiyyyətləri**

Dərsin səmərəli təşkili və uğurlu təlim nəticələri əldə olunması üçün dərs planının sistemli və ardıcıl elementlər əsasında tərtib edilməsi məsləhət görülür.

Bunun üçün aşağıdakı tələblərin nəzərə alınması məqsədəuyğun hesab edilir:

- **Standartların seçilməsi**;
- **Təlim məqsədimizlərinin müəyyənləşdirilməsi**;
- **İş forması və üsullarının seçilməsi, ondan istifadə edilməsi**;
- **İnteqrasiya** imkanlarının nəzərə alınması;
- **Resursların müəyyən edilməsi**;
- **Dərsin mərhələlər üzrə təşkili;**
- **Vaxtı** düzgün bölünmsəi və ondan istifadə.

İkinci Xarici dil fənni üzrə (İngilis dili, Rus dili, Fransız dili, Alman dili, Ərəb dili, Fars dili) təxmini perspektiv planlaşdırma nümunəsi.

## V sinif üzrə İkinci xarici dil fənni üzrə təxmini perpektiv planlaşdırma nümunəsi (32 saat)

| **Standart** | **Tədris vahidi** | **Mövzu** | **İnteqrasiya** | **Resurslar** | **Qiymətləndirmə** | **Saat** | **Tarix** |
|---|---|---|---|---|---|---|---|
| 1.1.1.<br>2.1.1.<br>2.1.2. | Dərs 1. Tanışlıq | 1.Salam oğlanlar və qızlar!<br>*Qram: "olmaq"*<br>*Mən şagirdəm*<br>2.Sənin adın nədir?<br>*Qram: Yiyəlik əvəzlikləri mənim, sənin, onun, bizim* | Az-d.:1.2.3. | Metodiki vəsait, rəngli kartlar<br>CD –" Sənin adın nədir?<br>?" | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar<br>Rollu oyunlar | 1<br>1 | Sentyabr |
| 1.1.2.<br>2.1.2.<br>2.2.2. | Dərs 2. Məktəb | 1.Mənim məktəb əşyalarım<br>2. Budur...<br>*Qram: "vardır"* | Tex.:1.2.3.<br>Riy.:1.1.1. | Metodiki vəsait, rəngli kartlar, grammatik kartlar. | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar<br>Kiçik summativ test | 1<br>1 | Sentyabr-Oktyabr |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | | Oktyabr |
| 1.1.2.<br>2.1.2. | Dərs 3. Saylar | 1. Neçə yaşın var?<br>2.Formalar<br>3.Sənin telefon nömrən necədir? *Qram: İşarə* | Tex.: 1.1.1.<br>Riy.:1.1.2. | Metodiki vəsait,<br>Rəngli kartlar<br>CD "Sənin telefon nömrən necədir?" | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar | 1<br>1 | Noyabr |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2.2.1. | | *əvəzlikləri: Bu, O ; Bunlar, Onlar* | | | Kiçik summativ test | 1 | |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | | Noyabr |
| 1.1.2.<br>1.1.3.<br>2.1.2.<br>2.2.2.<br>2.2.3.<br>2.2.4 | Dərs 4<br>Rənglər | 1.Göy nə rəngdədir?<br>2. Göyqurşağı<br>3. Nə rəngdir...? | Az-d.:1.2.3.<br>T.Inc.:1.1.1. | Metodiki vəsait, rəngli kartlar<br>CD –"Göyqurşağı nə rəngdədir? | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – tapşırıqlar,summativ test | 1<br>1<br>1 | Noyabr - Dekabr |
| **B ö y ü k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | 1 | Dekabr |
| 1.1.2<br>2.1.2.<br>2.2.2.<br>3.1.1.<br>4.1.1. | Dərs 5.<br>Hərflər (Gəlin yazaq) | 1.A, B, C<br>2.Sən adını hərf-hərf deyə bilərsənmi?<br>3.Hərflərin mahnısı | Mus.:1.2.1. | Metodiki vəsait, rəngli kartlar<br>CD–"" Hərflərin mahnısı | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar<br>Kiçik suimmativ test | 1<br>1<br>1 | Yanvar |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | | Fevral |
| 1.1.2<br>2.1.2.<br>2.2.2.<br>3.1.1.<br>4.1.1.<br>4.1.2. | Dərs 6.<br>Ailə | 1.Tedin ailəsi<br>2.Mən anama kömək edirəm | Mus.:1.1.1. | Metodiki vəsait, rəngli kartlar<br>CD –"Ailə mahnısı" | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar<br>Kiçik summativ test | 1<br>1 | Fevral |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | 1 | Mart |
| 1.1.2.<br>2.1.3.<br>2.2.2. | Dərs 7.<br>Geyimlər | 1.Köynəyin nə rəngdədir?<br>2.Bir cüt ... | T.Inc.:1.2.1.<br>Riy.:1.2.2. | Metodiki vəsait, rəngli kartlar<br>CD –"Geyimlər" | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, | 1 | Mart |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3.1.1.<br>3.1.2.<br>4.1.1.<br>4.1.2. | | | | Elektron slaydlar | tapşırıqlar<br>Kiçik summativ test | <br>1 | |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | 1 | Aprel |
| 1.1.1.<br>1.1.2.<br>2.1.2.<br>3.1.2.<br>4.1.1. | Dərs 8.<br>İdman oyunları | 1.Hansı oyunları xoşlayırsan?<br>2Mən tullana bilirəm (futbol, basketbol)<br>Modal fel: bacarıram<br>Mən bacarıram...<br>Mən bacarmıram... | F.t.:2.1.1.<br>Mus.:1.2.2 | Metodiki vəsait, rəngli kartlar<br>CD –“İdman edək” mahnısı | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – dialoqlar | 1<br><br>1 | Aprel |
| 1.1.2.<br>2.1.2.<br>3.1.2.<br>3.1.3.<br>4.1.1. | Dərs 9.<br>Bədən üzvləri | 1.Mənim üzüm<br>2. Mənim bədənim<br>Sifətlər: böyük, balaca, hündür və alçaq | F.t.:1.2.2. | Metodiki vəsait, rəngli kartlar<br>CD –“Simon deyir ki,” elektron slaydı | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar<br>Kiçik summativ test | 1<br><br>1 | Aprel |
| **K i ç i k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | 1 | May |
| 1.1.2.<br>2.1.2.<br>2.2.2.<br>3.1.2.<br>3.1.3.<br>4.1.1. | Dərs 10.<br>Heyvanlar | 1.Mənim sevimli ev heyvanım<br>2. Mənim balaca küçüyüm haradadır?<br>3. Zooparkda | H.b.: 1.1.2. | Metodiki vəsait, rəngli kartlar<br>CD –“McDonalds” elektron slaydı | Diaqnostik<br>Şəkillər və şifahi sorğu<br>Formativ – test, tapşırıqlar | 1<br>1<br><br>1 | May |
| **B ö y ü k s u m m a t i v q i y m ə t l ə n d i r m ə** | | | | | | 1 | May |

## Cari dərs planı nümunəsi

| |
|---|
| **Standartlar** |
| **Mövzu** |
| **Məqsəd və vəzifələr** |
| **İnteqrasiya** |
| **İş forması** |
| **İş üsulu** |
| **Resurslar** |
| ***Dərsin mərhələləri*** |
| **1. Motivasiya. Problemin qoyuluşu.**<br>Tədqiqat sualları |
| **2. Tədqiqatın aparılması. Praktik iş.**<br>1) Qrup işlərinin təşkili<br>2) Müəllimin bələdçiliklə iştirakı (qruplarda iş, fikir mübadiləsi) |
| **3. İnformasiya mübadiləsi.**<br>1) Qruplarda informasiya mübadiləsi. |
| **4. İnformasiyanın müzakirəsi və təşkili.**<br>1) Şagird təqdimatları.<br>2) Əldə olinmuş informasiyalara əsasən müzakirələrin təşkili. |
| **5. Nəticə və ümumiləşdirmə.**<br>1) İnformasiya əsasında ümumiləşdirmələr aparılır. |
| **6. Qiymətləndirmə**<br>Müəllim qiymətləndirməni hər mərhələdə aparır. |
| **7. Ev tapşırığı.** |
| **8.Yaradıcı tətbiqetmə.** |
| **9. Refleksiya.** |

Müəllim cari dərs planı hazırlayarkən aşağıdakı mərhələlərə diqqət etməlidir:

Müəllim əvvəlcə təlim nəticələri üzrə standartları nəzərdən keçirir və mövzunu seçərək dərsini planlaşdırır.

***Məzmun xətti***. Müəllim əvvəlcə məzmun xətlərini nəzərdən keçirərək mövzunu ***dinləyib-anlama***, ***danışma, oxu, yazı*** fəaliyyətləri əsasında müəyyənləşdirir. Bu məzmun xətlərini bir-birinə inteqrasiya edərək şagirdlərdə müxtəlif bacarıqlar formalaşdırır. Bunu nəzərə alaraq, müəllim dinləyib-anlama, danışma, oxu, yazı bacarıqlarının formalşdırılımasına nail olmaq üçün uyğun standartlar müəyyən edir.

***Standartları*** *(alt standartları)* seçərkən müəllim şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini, eləcə də sinfinin səviyyəsini nəzərə alır. Bu standartlara əsasən, şagirdlərin müəyyən normada hansı bilik və bacarıqlara yiyələnəcəyini müəyyənləşdirmiş olur. Sonra mövzunu müəyyən edir və bu standartların reallaşdırılmasını təmin edən inkişafyönümlü təlim məqsədlərini təyin edir.

***Məqsəd və vəzifələr.*** Dərsdə bir və ya iki məqsəd təyin etmək olar. Məzmun standartlarının reallaşmasına nail olmaq üçün müəllim bu məqsədlə bir neçə vəzifə müəyyən edir. Bu məqsədlərə nail olmaq üçün müəllim dərsi mərhələlərlə təşkil edir və şagird fəaliyyətinə əsaslanan təlim forması qurur. Məqsəd və vəzifələr şagirdlərin lazımı bacarıqlara yiyələnməsini nəzərdə tutur: anlama, tətbiqetmə, ünsiyyət və s.

**İş forması**. Şagird fəaliyyətində uğurlu nəticələr dərs planında iş formasının düzgün müəyyən olunmasından asılıdır. Bunlara kollektivlə iş, böyük və kiçik qruplarda iş, cütlər və fərdlərlə iş forması aiddir.

**İş üsulu.** Uğurlu təlim prosesi yaradılmasında təlim strategiyaları əsas rol oynayır. Təlim məqsədlərinə nail olmaq üçün hər mərhələdə şagirdlərin dörd fəaliyyət üzrə bacarıqlarını formalaşdıran müxtəlif üsul və vasitələr seçilir. Bunlara söz assosasiyaları, BİBÖ, klaster, anlayışın çıxarılması, Venn diaqramı, ziqzaq, karusel, müzakirələr, rollu oyunlar və s. aiddir. Məqsədlərin bilik və fəaliyyət hissəsi bu üsul və vasitələr üzrə hazırlanmış tapşırıqların şərtində öz əksini tapmalıdır.

**İnteqrasiya.** Təlim prosesində şagirdlərin təfəkküründə ətraf aləmi tam və obrazlı formalaşdırmaq üçün müəllim müxtəlif fənnlərə inteqrasiya edir. Xarici dilin tədrisində iki inteqrasiya növü nəzərdə tutulur: fəndaxili və fənnlərarası inteqrasiya. ***Fəndaxili*** inteqrasiya zamanı dörd məzmun xətti üzrə şagirdlərin bilik və bacarıqlarının əlaqələndirilməsi nəzərdə tutulur. Xarici dil dərslərində dinləyib-anlama məzmun xətti əsasən danışmaya, oxu məzmun xətti isə daha çox yazı məzmun xəttinə inteqrasiya edir. Eyni zamanda dinləyib-anlama və danışma məzmun xətlərinin oxu və yazı məzmun xətlərinə inteqrasiyası da həyata keçirilir. Dinlədiyi və oxudğu məlumatı şifahi və ya yazılı təqdim etmək fəndaxili inteqrasiyanın müsbət nəticəsidir. ***Fənnlərarası inteqrasiya*** zamanı isə bir neçə fənnin əhatə etdiyi ortaq anlayış, bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların digər fənnlər daxilində öyrənilməsini nəzərdə tutur. Xarici dil dərsləri sırf inteqratif dərslərdir. Müəllim dərsini müxtəlif fənnlərə inteqrasiya edərək şagirdlərdə müxtəlif bilik və bacarıqlar formalaşdıra bilər. Bunun üçün müəllim tarixi hadisələrin, görkəmli şəxsiyyətlərin öyrənilməsini tarix və ədəbiyyat fənnlərinə, riyazi bilik və bacarıqların öyrənilməsini riyaziyyat fənninə, ətraf mühitin və Yer kürəsinin öyrənilməsini coğrafiya fənninə, flora və faunanın öyrənilməsini həyat bilgisi və biologiya fənninə, rənglərin, rəsmlərin, illustrasiya yaratmaq və fiqurların hazırlanmasını təsviri incəsənət və texnologiya fənnlərinə, sözlərin, cümlələrin musiqili şəkildə qavranılmasını musiqi fənninə, mövzuların bədən hərəkətləri ilə nümayişini fiziki tərbiyə fənninə inteqrasiya edərək tətbiq edə bilər.

**Resurslar**. Müəllim hər hansı bir mövzunu keçmək üçün sinfi lazımı materiallarla, vizual əyaniliklə: musiqi diskləri, CD-lər, müxtəlif internet resursları, filmlərdən fraqmentləri əks etdirən disklər, görkəmli şəxsiyyətlərin, görməli yerlərin şəkilləri, mövzuya aid iş vərəqləri, peyzajlar, müxtəlif rəngli heyvan fiqurları, balonlar, süni meyvələr, saat, rəngli markerlər, karandaşlar, plastilin, ağ vərəqlər, səbət, qutu, yeni sözlər olan rəngli kartoçkalar, albomlar və s. ilə təchiz etməlidir.

## *Dərsin mərhələləri:*

***Motivasiya-problemin qoyuluşu***

Burada müəllim şagirdlərdə mövzunu öyrənməyə maraq oyatmaq üçün «fəallaşma» oyunlarından istifadə edərək yorğunluğu götürür. Müəllim mövzu ətrafında yönəldici suallardan istifadə edərək müxtəlif fərziyyələr toplayır, ziddiyyətli fikirlər ətrafında analiz edərək, tədqiqat sualını təqdim edir. Tədqiqat sualı məzmun standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməlidir. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***anlama, sual vermə, fərziyyələri irəli sürmə, nümunələr təqdim etmə, təyin etmə, informasiya toplama və s.***

***<u>Tədqiqatın aparılması</u>***

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş forma və üsulları seçilir. Burada şagirdlərin praktiki işi və müəllimin bələdçilik fəaliyyəti nəzərdə tutulur. İkinci dilin tədqiqatı vasitəsilə, dil bacarıqlarına yiyələnməklə yanaşı, şagirdlər həmçinin qulaq asmaq imkanı qazanır, dinləmə qabiliyyətlərini inkişaf etdirir, bir-birilə məlumatı mübadilə, müzakirə edir, oxuduğu materialı təhlil aparır və fikrini yazılı ifadə etmə bacarığı əldə edir. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***mübadilə etmə, analiz etmə, fərqləndirmə, xarakterizə etmə, təsnif etmə, redaktə etmə, yoxlama və s.***

***<u>İnformasiya mübadiləsi</u>***

Bu mərhələlərdə qruplar öz işlərini mübadilə edərək genişləndirir və çoxlu informasiya qazanır, müxtəlif fikirlər və məlumatlar əldə edir, birlikdə hazırladıqları işi təqdim edirlər. Əməkdaşlıq və qarşılıqlı təsir nəticəsində əlaqədə olmaqla qarşılıqlı təsir etməyi öyrənir. Bu bacarıqları inkişaf etdirmək üçün aparıcı üsullardan: oyunlardan, müxtəlif təqdimatlardan, faydalı fikirlər söyləməkdən, yeni sözlərdən, nitq etiketlərindən istifadə edərək tələb olunan məsələləri yerinə yetirirlər. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***şifahi qarşılıqlı təsir, sintez etmə, fikirləri birləşdirmə, uyğunlaşdırma, qarşılaşdırma, yeni fikir yaratma, təqdimat etmə və s.***

**<u>İnformasiyanın müzakirəsi və təşkili</u>**

Müəllim şagirdləri əldə olunan yeni məlumatların müzakirəsinə cəlb edir. Şagirdlər qazandıqları yeni məlumatları real həyat təcrübələri ilə əlaqələndirərək

müzakirə edirlər. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***dəyərləndirmə, münasibət bildirmə, sərbəst fikir söyləmə, reaksiya vermə, tənqidi yanaşma, öz mövqeyini müdafiə etmə, faktlar və arqumentlər gətirmə və s.***

***Ümumiləşdirmə və nəticə***

Bu mərhələdə müəllim məqsədinə tam nail olduğunu yoxlamaq üçün yenidən tədqiqat sualını yada salır, ümumiləşdirici suallar əsasında şagirdlərin qazandığı bacarıqları qeyd edir, birgə müzakirə edir, müəyyən olunmuş yoxlayıcı test və tapşırıqlarla yekunlaşdırır. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***inanadırma, razı salma, qiymət vermə, ümumiləşdirmə, qısa şərh etmə və yekunlaşdırma.***

***Yaradıcı tətbiqetmə***

Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir. Şagird yeni fikir əsasında yaranmış özünün yaratdığı modeli təqdim edir, mətn qurur, esse, şeir yazır, mahnı bəstələyir, obyektləri modelləşdirir, kitabça, bukletlər tərtib edir, elanlar, afişalar, açıqcalar, hesabatlar, çıxışlar, təqdimatlar və layihələr hazırlayır. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***qurma, bəstələmə, yaratma, tərtib etmə, hazırlama, modelləşdirmə və s.***

***Ev tapşırığı***

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi və şagirdlərin sərbəst yaradıcılıq fəaliyyətini inkişaf etdirmək üçün ən yaxşı vasitə ev tapşırıqlarıdır. Ev tapşırığının daha çox tədqiqat və yaradıcılıq elementləri ( yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar və.s) ilə zəngin olmasına diqqət yetirilməlidir. Yaradıcı tətbiqetməyə aid olan tapşırıqlar ev tapşırığı kimi də verilə bilər. Bu zaman şagirdlər aşağıdakı bacarıqlara yiyələnir: ***fotoçəkmə, kompüterdə rəsm və qrafika işləri yaratma, video çarxlar hazırlama, kiçik bukletlər hazırlama, qurma, bəstələmə, yaratma, tərtib etmə, hazırlama, modelləşdirmə və s.***

***Qiymətləndirmə***

Təlimin prosesinin keyfiyyətini üzə çıxaran ən etibarlı mənbə isə şagird təlim nəticələrinin obyektiv ***qiymətləndirilməsidir***. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Qiymətləndirmə prosesi şagirdləri fənnin öyrənilməsinə həvəsləndirmək və dilin qavranılması zamanı kommunikativ bacarıqların əldə olunmasına yardım edir. Müəllim qiymətləndirmə vasitəsilə şagirdlərin irəliləyişləri və əldə olunan nəticələrinə əsasən təlimin nə dərəcədə səmərəli olması haqqında hesabat və ya rəy verir. Bu mərhələdə müəllim təlim məqsədlərinə uyğun meyarlar müəyyən edir və meyar cədvəli, rubriklər, müşahidə və özünüqiymətləndirmə vərəqləri hazırlayır. Şagirdlərin təqdimatı zamanı bu meyarlar üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi aparılır və son nailyyət elan olunur.

***Refleksiya***

Refleksiya - təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan yaradır. Bu prosesdə müəllim təlim prosesini və aparılan şagird fəaliyyətinin nə dərəcədə onların şüurda inikas edildiyini və mənimsənildiyini yoxlayır və sonrakı mərhələyə keçid yaradır.

## Fənnlər üzrə cari dərs planı nümunələri

**İngilis dili fənni üzrə cari dərs planı nümunəsi**

**VI sinif**

**Standartlar:**

2.1.1. Dinlədiyi söz, söz birləşmələrini və sadə sözləri təkrar edir.

2.2.1. Şəkildə əks olunan əşyaları və hadisələri (geyim, hava) adlandırır.
2.2.3. Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur.

**Topic*:* *Weather and clothes***

**Məqsədlər:**

1. Hava və geyimlə bağlı eşitdiyi geyim və hadisələri şəkillərdə seçir və adlandırır.

2. Dinlədiyi söz və söz birləşmələrini təkrar edir.
3. Şəkildə əks olunan əşya və hadisələri öyrəndiyi sözlər əsasında təsvir edir.
4. Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur.

**İş üsulu:** beyin həmləsi, müzakirə

**İş forması:** kollektiv, qrup

**Resurslar:** Dərslik, lövhə, iş vərəqləri, yapışdırıcı, şəkillər, əyani vəsait.

**İnteqrasiya :** Təsviri incəsənət, Həyat Bilgisi.

**Dərsin gedişi:**

***Motivasiya.*** – Müəllim öz üzərində olan geyimlərin adlarını soruşur və daha sonra şagirdlərdən birinin geyimini digər dostlarına təsvir etdirir.

**Problem sual**: Siz bilirsinizmi hansı fəsildə hansı paltarları geyinməlisiniz?

***Hava haqqında sözlərin öyrədilməsi*.**

Müəllim pəncərəyə nəzər salaraq bayırda havanın necə olmasını müəyyənləşdirir və məhz həmin  iqlimə uyğun sözlə başlanğıc edir. “İt’s very hot (cold və s).” Bunu həmçinin jestlərlə göstərir. Sonra digər sözləri (cold, cool, snowy, windy, rainy, sunny ) jestlər və ya şəkillərlə şagirdlərə nümayiş etdirir və onların adlarını söyləyir.Şagirdlər hər bir sözü müəllimdən sonra təkrar etməlidirlər.

***Tədqiqat.***

Müəllim lövhədə 2 sütundan ibarət cədvəl çəkir.

| Hot | Cold |
|---|---|
| | |

Sonra şagirdləri bir-bir lövhəyə çağırır və stolun üstündəki geyim şəkillərini uyğun sütuna yapışdırmaq tapşırığını verir.

Müəllim havaya aid şəkilləri yenidən şagirdlərə göstərir və soruşur.

How is the weather? – İt’s sunny / rainy / hot / cold / snowy.









**Qrup işi.**

Sinif 3 qrupa bölünür.Hər qrupa paltar və hava şəkilləri verilir və şagirdlər həmin geyimləri havaya uyğun düzməlidirlər. Sonra hər qrupdan bir nəfər nəticəni təqdim edir. Tapşırığı tez və düzgün yerinə yetirmiş komanda qalib hesab olunur.















***Nəticə və ümumiləşdirmə .***

**Müəllim şəkilləri qəsdən səhv göstərərək soruşur.**

***İs it a coat?*** ***No, it isn't. What is it? İt is a cap.***



***İs the weather snowy?*** ***No, it isn't . İt is hot.***



**Ev tapşırığı**:

İsti , soyuq və sərin havaya aid geyim şəkilləri çəkmək və onların adlarını öyrənmək.

***QİYMƏTLƏNDİRMƏ :***

| Rubrics | Excellent | Good | Poor |
|---|---|---|---|
| 1.Name and choosing objects | | | |
| 2.Pronounciation | | | |
| 3. Matching | | | |

**Fransız dili fənni üzrə cari dərs planı nümunəsi**
**VII sinif**

# Cəm formada ifadə etmək.

Standartlar:
1.1.1. Tapşırıq xarakterli müraciətlərə cavab verir.
2.2.2. Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyəti, görünüşü) sadalayır.
2.2.4. Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir.
Mövzu: Cəm formada ifadə etmək/Exprimer au pluriel
Məqsəd :
1.Qeyri-müəyyənlik bildirən isimləri təkdə və cəmdə işlədir.
2.Müəyyənlik bildirən isimləri təkdə və cəmdə işlədir.
3.Öyrəndiyi yeni sözləri təkdə və cəmdə qısa cümlələrdə işlədir.
İnteqrasiya :
A.d. 2.1.3  Öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.
İş forması:
Cütlərlə və qruplarla
İş üsulu:
Müzakirə
Resurs:
Dərslik, şəkillər

# Dərsin gedişi

Motivasiya
Şagirdlərə təkdə və cəmdə meyvə və tərəvəz şəkilləri göstərilir. Şagirdlər şəkildə əks olunmuş meyvə və tərəvəzləri adlandırırlar.

Məsələn :

 ----- 

une pomme-des pommes

 ------ 

une tomate-des tomates

 ----- 

le feutre-les feutres

 ----- 

la colle-les colles

**Tədqiqat sualı :**
Şagirdlərə təkdə və cəmdə məktəb ləvazimatları göstərilir və onları fransız dilində demək təklif olunur. **Onları cəmdə necə ifadə etmək olar ?**






Par exemple: C'est un livre-Ce sont des livres.

**Tədqiqatın aparılması:**
Un, deux, trois, quatre deyərək şagirdlər 3 qrupa bölünürlər.
Qrup işi :
Hər qrupa məktəb ləvazimatını əks etdirən 3 şəkil verilir. Şagirdlər onları cəmdə deyərək, rəngləyirlər.
Par exemple: C'est un feutre - Ce sont des feutres.
Şagirdlər cütlərlə işləyirlər.Onlar sevdikləri əşyaların şəkillərini çəkir və sonra soruşurlar : Qu est-ce que c'est? Digəri cavab verir : C'est un chat.

**İnformasiya mübadiləsi:**
Qrupların seçdiyi nümayəndələr öz işlərini təqdim edirlər.

**İnformasiyanın müzakirəsi və təşkili:**
Şagirdlərin təqdimatından sonra müəllim cavabları ümumiləşdirir və şəkillər əsasında şagirdlərlə müzakirə keçirir:

**Nəticə və ümumiləşdirmə :**
Müəllim çalışmalara əsasən şagirdlərin cavablarını ümumiləşdirir.

**Ev tapşırığı :**
Əşyaların təkdə və cəmdə şəkillərini çəkin.

**Qiymətləndirmə**

| **Qruplar / Meyarlar** | **Anlama** | **Tanıma** | **Seçmə** | **Təsvir etmə** |
|---|---|---|---|---|
| **I** | | | | |
| **II** | | | | |
| **III** | | | | |

 **Excellent**  **Bien**  **Passable**

**Rus dili fənni üzrə cari dərs planı nümunəsi**
5 класс
Тема: Посуда.
Стандарты: 1.2.1; 2.1.1; 2.2.4.

Цель:
1.Формирует умение классифицировать предметы по определенным признакам;
2.Развивает быстроту мышления, слуховое внимание, речь учащихся;
3.Формирует и развивает навыки правильного произношения сочетаний звуков, слов и словосочетаний.
4.Формирует умение конструировать диалог, используя выученные слова, словосочетания и формулы речевого этикета.
Интеграция: П-м.1.2.3, И-я.3.1.2.
Формы работы: Работа в больших группах, урок-игра.
Методы обучения: Мозговой штурм, ролевая игра, кластер.
Ресурсы: Учебник, «звездочки» для оценивания работы учащихся в группах, детский чайный и столовый сервизы, предметные картинки.
Ход урока:
Приветствие и организация класса к уроку.
Класс делится на три группы: «Солнышко»,«Звездочка»,«Цветочек».
Мотивация:
Учитель:
- Я вам расскажу сказку-загадку. Она называется«Отгадайте!»

У Тани есть друзья-помощники. Она их очень любит. Утром, днем и вечером она вместе с мамой достает их из шкафа и кладет на стол. Без них Таня не сможет съесть суп, кашу, салат; выпить чай, воду, компот. Отгадайте: «Что это?»
Учащиеся:
- Это тарелка, стакан, ложка, нож, вилка, чайник.

Учитель показывает предметы чайного и обеденного сервизов, называетих. Учащийся хором повторяют. Учитель обобщает:

Постановка проблемы.

ложка чашка

вилка Посуда тарелка

нож чайник



кастрюля

Учитель:
- Ребята, на столе есть картинки, которые вы должны разложить в три шкафа.

Это пальто, платье, брюки, рубашка, чайник, ложка, книга, нож, юбка, шапка, стакан, вилка, альбом, чашка, блюдце.

Вы эти картинки должны положить в шкафы (№1, №2, №3).

| | | |
|---|---|---|
| №1<br>Книжный шкаф | №2<br>Шкаф для одежды | №3<br>Шкаф для посуды |

Организация исследования в группах.

Группа «Солнышко» выбрала картинки «книга и альбом» и положило в шкаф №1. Группа «Звездочка» выбрала картинки с изображением одежды и положила в шкаф №2, а группа «Цветочек» выбрала картинки с изображением посуды и положила в в шкаф №3.
Учитель:
-как называется шкаф, в котором есть книги, альбомы?
Ученики:
- Книжный шкаф.
Учитель:
Как называется шкаф, в который вы положили одежду?
Ученики:
Шкаф для одежды.
Учитель:
Как называется шкаф, в котором находится посуда?
Ученики:
-Шкаф для посуды.
Учитель:
-Сравните и скажите, в каком шкафу больше предметов.
Ученики:
-В шкафу для посуды.
Учитель:
-Сколько?
- Ученики:
-Семь.
Проводится игра «Кто быстрей?» Каждая из групп считает предметы (из набора детской посуды) и называет их. Побеждает группа, которая правильно назвала предметы и сосчитала их.

Хоровое заучивание наизусть стихотворения.

Мы помыли руки мылом,
А теперь мы будем есть!
Вот тарелки, вилки, ложки.
Только просьба - не шуметь!

Применение . Ролевая игра – « Хозяюшки на кухне».
Три девочки (по желанию, могут участвовать и мальчики) повязывают фартуки: сегодня они «хозяйки» на кухне.

На столе учителя лежат наборы детской посуды – 6 тарелок, 7 вилок, 5 ножей, 4 стакана, 8 ложек, салфетки.

Учитель:

- Каждая «хозяйка» должна взять 1 тарелку, 1вилку, 1нож, 1стакан, ложку и салфетку (учитель показывает эти предметы детям).

Сначала учитель объясняет и показывает, как должны лежать приборы на столе, а потом задание выполняют «хозяйки», каждая на своем столе.

Проводится диалог. Учитель, обращаясь к одной из «хозяек», говорит:

- Лейла, дай мне, пожалуйста, одну тарелку, одну вилку, одну ложку и нож.

- А стакан?

- Пожалуйста, дай мне один стакан и салфетку.

- Пожалуйста.

- Спасибо.

После того, как хозяйки закончили работу, жюри из 3-х учеников оценивает их работу. Самая аккуратная «хозяйка» получает звездочку.

Результаты и обобщение.

Учитель:

- Какие предметы остались на моем столе? Сколько их?

- 3тарелки, 4вилки, 2ножа, 1стакан.

Учитель еще раз показывает эти предметы и называет их, а учащиеся повторяют.

Учитель:

- Тарелки, вилки, ножи, стаканы, ложки –это посуда.

Учащиеся хором повторяют.

Учитель:

- Какого цвета тарелки лежат на столе «хозяек»?

-Синие тарелки, белые тарелки, зеленые тарелки.

Учитель:

- Что можно положить на тарелку (показывает картинки)?

- Учащиеся:

-Хлеб, кашу, салат, фрукты.

- Учитель:

- Что можно налить в стакан (показывает картинки)?

- Учащиеся:

- Сок, чай, компот, молоко.

Оценивание:

| Знания и умения (критерии) / Группы | Солнышко | Звездочка | Цветочек |
|---|---|---|---|
| 1.Умение классифицировать предметы по признакам; | | | |
| 2. Развивает быстроту мышления, речь учащихся. | | | |
| 3. Развивает навыки правильного произношения. | | | |
| 4. Умеет конструировать диалог. | | | |
| 5. Сотрудничество. | | | |

«Солнышко» - + + +
«Звездочка» - + + + +
«Цветочек» - + + + +

Домашнее задание: Задание 2 (нарисовать посуду, которая нужна во время завтрака), задание 7 (найдите на картинках и раскрасьте посуду).

**VI sinif**

**Alman dili**

**Standardtlar:**

2.2.1. Zaman və məkanla bağlı anlayışları adlandırır.

2.2.4. Müzakirələrdə mövzu ilə bağlı fikirlərini bildirir.

4.1.1. Verilmiş mövzu üzrə fikirlərini yazılı ifadə edir.

**Mövzu: Sommerurlaub**

**Məqsəd:**

1. Tanıdığı ölkə, şəhərlər haqqında danışır.
2. Mövzu ilə bağlı fikirlərini sərbəst ifadə edir.
3. Öyrəndiyi sözlər əsasında "Yay tətili" ilə bağlı kiçikhəcmli mətnlər qurur.

**İnteqrasiya:**

**A.d.:** 1.1.2, 3.1.4.

**İş forması:**

Fərdi, qruplarla

**İş üsulu:**

Müzakirə, beyin həmləsi, təkrar etdirmə.

**Resurs:**

Dərslik və şəkillər

**Lüğət:** Die Landschaft, Sand, Zelt, montgne, die Landschaft, Meer, Sightseeing, Fußball spielen, machen Wandern Mountainbiking, Reiten, Volleyball spielen, schwimmen gehen, der Marsh, spielen Fußball, Volleyball, Ballspiele, Sonnenbaden, Treffen mit Freunden.

**Dərsin gedişi**

**Motivasiya:**

Müəllim sual verir:

Tətilinizi necə keçirdiniz?

Tətildə maraqlı nələr etdiniz?

**Tədqiqat sualı:**

Yay tətilinizi harada və necə keçirdiniz?

**Tədqiqatın aparılması:**

Müəllim fərdi olaraq uşaqlardan tətili necə keçirdiklərini soruşur və uşaqlardan cavablar alır.

**Qruplarla iş**

Müəllim Fransanın, Türkiyənin və İtaliyanın tanınmış yerlərinin şəkillərini paylayır və qruplara tapşırır ki, təsəvvür edin ki, siz yay tətilində bu ölkələrdə olmusunuz. İndi bu ölkərlərdə yay tətilini necə keçirməyiniz, haralarda olmağınz, kimlərlə tanış olmağınız haqqında kiçik təqdimatlar hazırlayın.

**İş vərəqi 1**
**Təsəvvür edin ki, yay tətilinizi İtaliyada keçirmisiniz. Öz təəssüratlarınızı yazın. (şəkillərərə əsasən).**





**İş vərəqi 2**
**Təsəvvür edin ki, yay tətlinizi Fransada keçirmisiniz. Öz təəssüratlarınızı yazın. (şəkillərə əsasən).**





**İş vərəqi 3**
**Təsəvvür edin ki, yay tətlinizi Türkiyədə keçirmisiniz. Öz təəssüratlarınızı yazın. (şəkillərə əsasən).**





**İnformasiya mübadiləsi:**
Qrupların seçdiyi nümayəndələr öz işlərini təqdim edirlər.

**İnformasiyanın müzakirəsi və təşkili:**

Şagirdlərin təqdimatından sonra müəllim cavabları ümumiləşdirir və aşağıdakı suallar əsasında müzakirə təşkil edir.

Bəs vətənimizin hansı tanınmış yerlərini tanıyırsınız?

Əyər xaricdən dostunuz gəlsə, onu ölkəmizin hansı yerlərinə aparаrsınız?

**Nəticə və ümumiləşdirmə :**

Müəllim cavablara əsasən şagirdlərin cavablarını ümumiləşdirir və yeni sözləri bir daha təkrar etdirir.

**Qiymətləndirmə:**

| Qruplar / Meyarlar | Yeni sözlərdən istifadə etmə | Təsəvvür etmə bacarıqları | Mətnqurma | Təqdimat |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |

**Ev tapşırığı :**
Hər kəs məktub şəklində yay tətilini necə keçirməsi haqda kiçik mətn hazırlasın.

**Ərəb dili fənni üzrə cari dərs planı nümunəsi**
**Sinif : VII sinif**

**Mövzu:** “Dövlət rəmzləri”








**Standartlar**

2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşyaları adlandırır.
2.2.4. Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir.
İnteqrasiya: tarix

Məqsəd:

1.Dövlət rəmzlərini şəkillərdə adlandırır.

2.Dövlət rəmzlərininin adlarını düzgün oxuyur.

3.Vətənimiz haqqında müxtəlif məlumatlar verir.

**İş forması**: fərdi iş, qruplarda iş

**İş üsulu**: müzakirə

**Resurslar**: dərslik, şəkillər








**Dərsin gedişi:** Motivasiya, problemin qoyuluşu

**وضع المشكلة**

1) يعرض المدرس صورا عليها رموز الدولة ويطرح على الاطفال الاسئلة المختلفة :
- ماذا تعلمون عن رموز الدولة؟
- هل تعرفون رموز الدولة لآذربايجان المستقلة؟

يجيب التلاميذ على هذه الاسئلة بالآذرباجانة.

**إجراء الدراسة**

**Tədqiqatın aparılması:**

2) يحدث المدرس عن دولتنا المستقلة. ثم يعرّف الاولادَ بالمعلومات عن رموز الدولة: النجمة الثمانية، العلم، النشيد الوطني، الجيش الوطني، العملة الوطنية.

3) يتقسّم الصف الى ثلاث فرق. ويقول كل فرقة جملتين عن آذربايخان.

**الفرقة الاولى:** أنا مواطن آذربيجان. آذربيجان- بلد قديم.

**الفرقة الثانية:** لآذربايجان ثقافة غنية. في أراضي آذربايجان ثروات كثيرة.

**الفرقة الثالثة:** أنا أحب وطني. الشعب الآذربايجاني محبّ للسلم.

**مرحلة المناقشة والمبادلة**

**Müzakirə və mübadilə mərhələsi**

4) ثم توزّع على التلاميذ الورقات بالكلمة عن الموضوع. ويقول المدرس للاطفال :

- إقرأ وأكتب هذه الكلمات تحت الصور واستذكرها:







**ألتقدمات** .......... .......... .......... .......... ..........

**Nəticə və ümumiləşdirmə:**

يُنجز التلاميذ الواجبات. بعد هذا يكتب الاطفال التمارين عن هذا الموضوع. يراقب المدرس التمارين.

5) يجيب التلاميذ والتلميذات أسئلة المدرس:

- ما الوان علم آذربايجان؟ - ما اسم وطنك؟ - من أين أنت؟

بعد هذا يغنّي كل التلاميذ والتلميذات النشيد الوطني معا.

**التقييم**

**Qiymətləndrmə**

تعلن التقييمات لكل التلاميذ.

Şagirdin adı ___________________________________

| № | meyarlar | (cox az) | (az) | (bir az) | (hərtərəfli) |
|---|---|---|---|---|---|
| 1. | Müəyyənləşdirmə | | | | |
| 2. | Düzgün adlandırma | | | | |
| 3. | Düzgün tələffüz etmə | | | | |
| 4. | Nümayiş etdirir | | | | |

**الواجيبات المنزلية**

**Ev tapşırıgı**

حصول على المعلومات الجديدة عن وطننا.

Dövlət rəmzlərimizin şəklini çəkin və üzərində hər bir elementin adını yazın.

**Fars dili fənni üzrə cari dərs planı nümunəsi**
**VII sinif**

**Standartlar:**

1.1.2. Dinlədiyi mətndə yeni söz və ifadələri seçir.

2.2.2. Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyəti, görünüşü) sadalayır.

2.2.4. Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir.

**Mövzu: Mağazada (در فروشگاه)**

Məqsəd:

1. Alış verişlə bağlı yeni söz və ifadələri düzgün seçir.
2. Mağazada olan əşyaların görünüşünü sadalayır.
3. Dinlədiyi söz və söz birləşmələrini təkrar etmək.
4. Dinlədiyi söz və söz birləşmələrinin mənasını öyrənərək onları cümlədə işlədir
5. Verilmiş əşyaların ayrı – ayrı xüsusiyyətlərinə görə suallar qurur.
6.

İş forması: cütlüklər, kiçik qruplar

İş üsulu: dialoq səhnələşdirmə, rollu oyunlar

İnteqrasiya: riyaziyyat, həyat bilgisi

Resurslar: dərslik, rəngli kartoçkalar, CD – Romlar

İfadələr:

alıcı – مشترى، خريدار

satıcı – فروشنده

Neçəyədir? – چند است؟ (چنده؟)

bahadır – گران است

ucuzdur – ارزان است

endirim etmirsiniz? – تخفيف نمى دهيد

yorulmayasınız – خسته نباشید

xoş gəlmişsiniz – خوش آمدید!

**Motivasiya – problemin qoyuluşu.**

Müəllim şagirdlərə hansı rəngdə paltarları xoşladıqları və mağazada davranış qaydaları haqqında ana dilində suallar verir və qısa müddətli müzakirə yaradır.

– mən mağazaya daxil olarkən salam verirəm və çıxanda sağollaşıb gedirəm.

– mən qara rəngli paltarları xoşlayıram.

**Tədqiqatın aparılması:**

Fars dilində alıcı ilə satıcı arasında ünsiyyət necə qurulur?

Şagirdlər fars dilində mağazada baş tutan dialoq dinləyirlər.

Şagirdlər yeni söz və söz birləşmələrini təkrar edir və onların mənalarını dəqiqləşdirirlər.

xəridar: səlam, xəste nəbaşid.

foruşənde: səlam, səlamət başid, xoş amədid.

xəridar: an kif çənd əst?

foruşənde: kodam kif? an kif çe rəng – i – st?

xəridar: siyah əst.

foruşənde: do hezar tumən.

xəridar: xeyli geran əst. təxfif nemidəhid?

foruşənde: başəd

Müəllim başqa sözlərdən istifadə edərək əsas birləşmələri təkrar edir və şagirdlər həmin birləşmələri təkrar edirlər. Müəllim şagirdin əvvəlki dərslərdən öyrəndiyi sözlərdən istifadə edərək yeni birləşmələr üzrə şagirdlərə suallar verir.

İn ketab çe rəng – i – st? in ketab səbzrəngəst.

xəridar çe mixərəd? xəridar kif mixərəd.

dər – e otaq çe rəng – i – st?

in qələm çənd əst?

Müəllim hazır yazılmış dialoqu şagirdlərə təqdim edir və şagirdlər boş qalmış yerləri müvafiq söz və ya söz birləşmələri ilə tamamlayırlar

xəridar: səlam ... .

foruşənde: səlam, ... səlamət başid. ...

xəridar: an kif ... ?

foruşənde: kodam ... ?

xəridar: siyah əst.

foruşənde: do hezar... .

xəridar: xeyli geran əst. ... ?

foruşənde: başəd.

**Yaradıcı tətbiq etmə.**

Müəllim şagirdləri cütlüklərə ayıraraq dialoqu səhnələşdirməyi tapşırır. Şagirdlər yeni söz və söz birləşmələrindən istifadə edərək dialoqu səhnələşdirir.

**Nəticə və ümumiləşdirmə.**

Müəllim öyrətdiyi sözlər əsasında suallar verir və ya Azərbaycan dilində cümlələr verərək şagirdlərin qazandığı bacarıqları müəyyən edir.

**Ev tapşırığı.**

Evdə öz əşyalarınızın (geyim, dərs ləvazimatı və s.) adlarını, rənglərini və təqribi qiymətini deyin və onları işlətməklə keçilən dialoqu təkrar edin.

**Qiymətləndirmə.**

Müəllim hər qrup üçün meyar cədvəli hazırlayır. Dərsin bütün mərhələlərində qiymətləndirmə aparılır.

| № | Qruplar/meyarlar | Sözləri və söz birləşmələrini təkrar edir | Sözləri cümlədə işlədir | Sualları cavablandırır | Ünsiyyət qurur |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

## 2.4. İkinci xarici dil fənninin məzmun standartlarının şərhi[1]

| V sinif | | |
|---|---|---|
| **Standart** | **Məzmun** | **Açar sözlər** |
| **Dinləyib-anlama** | | |
| 1.1.1.Sinifdaxili müraciətlərə əməl edir. | Sinifdaxili müraciətlərin edilməsi (əyləşin, durun, təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitabı, dəftəri aç, bağla) | Dinləmə, müraciət, əyləş, dur, təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitab, dəftər |
| 1.1.2. Adını eşitdiyi əşyaları şəkillərdə seçir və göstərir. | Öyrəndiyi yeni sözlərin şəkillər üzrə seçilməsi və göstərilməsi | Dinləmə, əşya, şəkil, seç, göstər |
| **Danışma** | | |
| 2.1.1. Dinlədiyi səs, səs birləşmələrini və sadə sözləri təkrar edir. | Müəllimin diktə etdiyi və ya səsləndirilən səs, səs birləşmələri və sadə sözlərin təkrar edilməsi | Tələffüz, səs, səs birləşməsi, sadə söz, təkrar |
| 2.2.1. Şəkildə əks olunan əşyaları və ətrafdakıları (ailə, məktəb) adlandırır. | Şəkildə əks olunan müxtəlif məzmunlu əşyaların və ətrafdakıların adlandırılması | Şəkil, əşya, ətraf, adlandırma |
| 2.2.2.Adlandırdığı əşyaların əlamətlərini (həcm, rəngi, forma) sadalayır. | Əşyaları adlandırarkən onların əlamətlərinin (həcm, rəngi) sadalanması | Əşya, əlamət, həcm, rəng, sadalama, adlandırma |
| 2.2.3.Şəkildə əks olunan əşyaları və ətrafdakıları öyrəndiyi sözlər əsasında | Əşya, əlamət, həcm, rəng, sadalama, adlandırma | Əşya, əlamət, həcm, rəng, sadalama, adlandırma |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| təsvir edir. | | |
| 2.2.4.Öyrəndiyi söz, söz birləşmələri və nitq edtiketlərindən istifadə edərək ünsiyyət qurur. | Yeni söz, söz birləşmələri və nitq etiketlərindən istifadə edərək ünsiyyətin qurulması, dialoqda iştirak və.s | Yeni söz, söz birləşmələri və nitq etiketlərindən istifadə edərək ünsiyyətin qurulması, dialoqda iştirak və.s |
| **Oxu** | | |
| 3.1.1. Hərf, hərf birləşmələri və sözləri düzgün oxuyur. | Mətndə, dialoqda olan hərfləri, hərf birləşmələrini və sözləri düzgün tələffüzlə oxuma. | Hərf, hərf birləşməsi, söz. |
| 3.1.2. Kiçikhəcmli mətnləri düzgün intonasiya ilə oxuyur. | Kiçikhəcimli mətnləri düzgün intonasiya ilə oxuma. | Mətn, intonasiya, oxu. |
| 3.1.3.Kiçikhəcmli mətnlərin məzmununu başa düşdüyünü nümayiş etdirir. | Sadə sual-cavabda iştirak etmə, kiçikhəcimli mətinlərin məzmununu danışmaq. | Kiçikhəcimli mətn, sual-cavab, danışma. |
| **Yazı** | | |
| 4.1.1. Hərf, hərf birləşmələri və sözləri düzgün yazır. | Orfoqrafik qaydalara, əməli yazı qaydalarına düzgün əməl etmə. | Hərf, hərf birləşməsi, söz, orfoqrafik qayda, əməli yazı. |
| 4.1.2. Öyrəndiyi söz birləşmələrini və cümlələri düzgün yazır. | Orfoqrafik qaydalara, əməli yazı qaydalarına, durğu işarələrinə düzgün əməl etmə. | Söz, söz birləşməsi, orfoqrafik qayda, əməli yazı, durğu işarələri. |
| 4.1.3. Sadə məktublar yazır. | Öyrəndiyi söz və ifadələrdən, sadə etiket qaydalarından, sadə müraciət formalarından istifadə etmə. | Söz, ifadə, leksik və qrammatik material, sadə etiket qaydaları, sadə müraciət formaları. |
| **VI sinif** | | |
| **Dinləyib- anlama** | | |
| 1.1.1.Müraciətlərə əməl edir və | Məktəb və məişətlə bağlı | Məktəb, məişət, müraciət, de, əyləş, dur, |

| | | |
|---|---|---|
| sadə sualları cavablandırır. | müraciətlərin edilməsi (Sənin adın nədir? Bu nədir? De, əyləş, dur, təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitab, dəftər aç, bağla) | təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitab, dəftər, soyad, bu |
| 1.1.2. Adını eşitdiyi əşya və hadisələri şəkillərdə seçir və göstərir. | Müəllimin diktə etdiyi və ya adları səsləndiriən əşya və hadisələrin şəkillərdə seçilməsi və göstərilməsi | Dinləmə, əşya, şəkil, seçmə, göstərmə, hadisə, diktə |
| **Danışma** | | |
| 2.1.1. Dinlədiyi söz, söz birləşmələrini və sadə sözləri təkrar edir. | Müəllimin diktə etdiyi və ya səsləndirilən söz və söz birləşmələrinin təkrar edilməsi | Təkrar, diktə, söz, söz birləşməsi |
| 2.2.1.Şəkildə əks olunan əşyaları və hadisələri (geyim, hava) adlandırır. | Şəkildə gördüyü müxtəlif geyim əşyalarının və təbiət hadisələrinin adlarını söyləmə. | Müxtəlif, geyim, əşya, təbiət, hadisə, ad, söyləmə. |
| 2.2.2.Adlandırdığı əşyaların əlamətlərini (forma və kəmiyyət) sadalayır. | Adlandırdığı əşyaların əlamətlərinin sadalanması (rəng, say, forma, həcm) | Adlandırma, əşya, əlamət, sadalama, forma, kəmiyyət, say, forma, rəng. |
| 2.2.3.Öyrəndiyi sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurur. | Yeni sözlərdən və sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurulması, dialoqda iştirak və.s | Söz, nitq etiketi, ünsiyyət, dialoq. |
| 2.2.4.. Nitqində yeni söz və ifadələrdən düzgün istifadə edərək ünsiyyət qurur. | Danışarkən öyrəndiyi yeni söz və ifadələri düzgün işlədərək ünsiyyət qurma. | Nitq, yeni söz və ifadə, ünsiyyət. |
| **Oxu** | | |
| 3.1.1.Kiçikhəcmli mətnlərdə yeni söz və ifadələri düzgün | Kiçikhəcmli mətnlərdə yeni söz və ifadələrin düzgün tələffüslə | Mətn, yeni söz və ifadə, oxu, tələffüz |

| | | |
|---|---|---|
| oxuyur. | oxunması | |
| 3.1.2. Mətndəki yeni söz və ifadələri lüğətdən istifadə edərək oxuyur. | Mətnin yeni söz və ifadələrini lüğətə baxmaqla oxuma. | Mətn, söz və ifadə, lüğət, oxu. |
| 3.1.3. Oxuduğu mətnin məzmununa uyğun suallara cavab verir. | Oxuduğu mətnin məzmununa uyğun sual-cavabda iştiraketmə. | Oxu, mətn, məzmun, sual-cavab, iştiraketmə. |
| **Yazı** | | |
| 4.1.1. Dinlədiyi sözləri, söz birləşmələrini və sadə cümlələri düzgün yazır. | Dialoq və ya mətndə dinlədiyi sözləri, söz birləşmələrini, sadə ifadələri və cümlələri orfoqrafik cəhətdən düzgün yazma. | Dialoq, mətn, dinləmə, söz, birləşmə, sadə, ifadə, cümlə, orfoqrafik, düzgün, yazı. |
| 4.1.2. Müşahidə etdiyi əşya və hadisələrin əlamətlərini yazır. | Sinif otağında, ətrafında, kitabda müşahidə etdiyi əşya və hadisələrin əlamətlərini: rəngini, formasını yazma. | Sinif, otaq, ətraf, kitab, müşahidə etmə, əşya, hadisə, əlamət, rəng, forma, yazı. |
| 4.1.3. Təsvir xarakterli məktub yazır. | Sinifdə, ətrafında, kitabda gördüklərini təsvir edərək məktub yazma. | Sinif, kitab, görmək, təsvir etmə, məktub, yazı. |
| **VII sinif** | | |
| **Dinləyib- anlama** | | |
| 1.1.1. Tapşırıq xarakterli müraciətlərə cavab verir . | Müəllimin tapşırıq xarakterli müraciətllərinə cavab verilməsi(fərqləndir, seç,adlandır, tələffüz et, təkrar et və.s) | Müaciət, tapşırıq, seç, fərqləndir, adlandır, tələffüz et, təkrar et,cavab ver. |
| 1.1.2. Dinlədiyi mətndə yeni söz və ifadələri seçir. | Mətni dinləyərək yeni söz və ifadələri qeyd edilməsi, şəkillər | Bakı - şəhər Lalə - qız<br>Yaşıl - ağac |

| | | |
|---|---|---|
| | üzrə uzlaşdırılması | |
| **Danışma** | | |
| 2.1.1.Dinlədiyi söz və söz birləşmələrini düzgün tələffüz edir. | Danışanın nitqini dinləyərək söz və söz birləşmələrinin düzgün tələffüz edilməsi | Cümlə, söz və söz birləşmələri, tələffüs |
| 2.2.1 Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşyaları (ailə,məktəb) adlandırır. | Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşyaların (ailə, məktəb) adlandırılması | Məzmun, şəkil, əşya, (ailə, məktəb) adlandırma. |
| 2.2.2. Adlandırdığı əşyaların əlamətlərini (keyfiyyət və görünüşü) sadalayır. | Adlandırdığı əşyaların əlamətlərinin sadalanması (keyfiyyət,rəng, say, forma, həcm) | Adlandırma, əşya, əlamət, sadalama, forma, keyfiyyət, say, forma, rəng,gözəllik |
| 2.2.3. Kiçik həcmli dialoqlarda iştirak edir. | Sadə dialoqların qurulması:<br>Adın nədir?<br>Neçə yaşın var?<br>Necesen? | Söz həcmi<br>Ad, yaş, ünvan |
| 2.2.4.Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir. | Öyrənilmiş yeni söz və ifadələrin situasiyaya və istənilən mövzuya uyğun istifadə edilməsi. | Gəzinti – park, dostlar, boş vaxt, kitabxana, kino, görüş |
| **Oxu** | | |
| 3.1.1. Kiçikhəcmli mətnləri düzgün və sürətli oxuyur. | Kiçikhəcmli mətnlərin düzgün tələffüslə, sürətli oxunması | Mətn, oxu, tələffüz, sürət |
| 3.1.2. Mətndəki cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. | Mətndəki cümlələrin məqsəd və intonasiyaya görə qalxan və düşən tonla oxunması. | *Doğurdanmı?* Qalxan ton<br>*Zəng vuruldu*- düşən ton. |
| 3.1.3. Oxuduğu mətndə fakt və hadisələri müəyyən edir. | Mətndəki faktların və hadisələrin düzgün,məntiqi ardıcıllıqla | Mətn, tərkib, hissə,fakt,hadisə,məntiqi ardıcıllıq ,müəyyən edilmə. |

| | | |
|---|---|---|
| | müəyyən edilməsi. | |
| **Yazı** | | |
| 4.1.1. Şəkil üzrə kiçikhəcmli yazılı mətn qurur. | Şəkli təsvir edərək kiçik həcmli yazılı mətnlərin qurulması. | *Məs. Qış fəslidir. Hər yer ağ-appaqdır.Hava soyuqdur,şaxtalıdır.Uşaqlar qar topu oynayırlar.Onlar şəndirlər.* |
| 4.1.2. Sözləri orfoqrafiya qaydalarına uyğun yazır. | Sözləri düzgün yazmaq: böyük və kiçik hərfli sözləri yazmaq, durğu işarələrinə əməl edilməsi. | Böyük və kiçik hərflər, durğu işarələri. *Bakı qədim şəhərdirmi?* |
| 4.1.3. Sadə elanlar yazır. | Məktəb,dərs ,dərnək,imtahan barəsində sadə elanların yazılması. | Elan, yazı – *“Bütün dünya Azərbaycanlılarının həmrəyliyi”* elanı |
| **VIII sinif** | | |
| **Dinləyib-anlama** | | |
| 1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir. | Şifahi şəkildə, şəkil üzrə və bədən nümayişi ilə, rollu oyunlarla yerinə yetirilməsi | Şəkillər, fiziki hərəkətlə çağırış və rollu oyun |
| 1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir. | Mətni dinləyərək mətnin mənasını başa düşdüyünü nümayiş etdirilməsi,mətnin mənasına uyğun suallara cavab verilməsi | Bakı Azərbaycanın paytaxtıdır,qədim şəhərdir,odlar yurdudur. |
| **Danışma** | | |
| 2.1.1. Cümlələri və nitq etiketlərini düzgün tələffüz edir. | Danışarkən cümlələrin, nitq etiketlərinin düzgün tələffüz edilməsi | Cümlə, nitq etiketi, tələffüs |
| 2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya və hadisələri | Öyrənilən yeni söz və cümlələr əsasında müxtəlif məzmunlu şəkillərin, əşya və hadisə (mənzil, | Şəkil, məzmun, hadisə, əşya, adlandırma |

| | | |
|---|---|---|
| adlandırır.(mənzil,yaşadığı yer) | yaşadığı yer) adlandırılması | |
| 2.2.2. Şəkildə əks olunan əşya və hadisələri öyrəndiyi sözlər əsasında təsvir edir. | Şəkil üzrə əşya və hadisələrin öyrəndiyi yeni sözlər əsasında təsvir edilməsi | Şəkil, əşya, ətraf, söz, təsvir |
| 2.2.3. Dialoqlarda nitq etiketlərindən istifadə edir. | Nitq etiketləri və mövzuya uyğun dialoqun qurulması və situasiya daxilində işlədilməsi | Uyğun mövzu, situasiya, nitq etiketləri; |
| 2.2.4. Öyrəndiyi nitq modellərindən məqsədyönlü istifadə edir. | Nitq modellərinin kontekstə uyğun məqsədyönlü düzgün işlədilməsi | Nitq modeli, kontekst,<br>işlətmə |
| **Oxu** | | |
| 3.1.1. Oxuduğu mətnin məzmununa aid suallar tərtib edir. | Oxuduğu mətnin ümumi məzmununa uyğun sualların tərtib edilməsi.<br>Kim? Nə? Hara? Nə vaxt? Nə üçün? | Mətnin məzmunu,suallar. |
| 3.1.2. Oxuduğui mətndə yeni söz və ifadələri seçir və qruplaşdırır. | Mətni oxuyaraq yeni söz və ifadələrin qeyd edilməsi, seçilməsi,şəkillər üzrə uzlaşdırılması,qruplaşdırılması | Bakı - şəhər Lalə - qız<br>Yaşıl - ağac |
| 3.1.3. Mətndəki əsas fikri müəyyənləşdirir. | Mətni oxuyaraq mətnin mənasının başa düşüldyünün nümayiş etdirilməsi,mətnin mənasına uyğun suallara cavab verilməsi | İlin dörd fəsli var:yaz,yay,payız,qış.Hər bir fəslin öz gözəlliyi və özünəməxsus xüsusiyyətləri var. |
| **Yazı** | | |
| 4.1.1.Verilmiş cümlələr əsasında kiçikhəcmli yazılı mətn qurur | Verilmiş cümlələrdən kiçikhəcmli mətnlərin qurulması | *Məs. Yaz fəslidir. Ağaclar çiçək açır. Quşlar mahnı oxuyur. Günəş ətrafa nur saçır.* |

| | | |
|---|---|---|
| 4.1.2. Orfoqrafiya işarələrindən düzgün istifadə edir. | Orfoqrafiya işarələrindən yazıda düzgün istifadə edilməsi. | *durğu işarələri:vergül,nöqtə,sual işarəsi Bakı qədim şəhərdirmi?* |
| 4.1.3. Sadə afişalar yazır. | Sadə afişaların və elanların yazılması. | *Məktub, elan, yazı – "Sülh və müharibə" elanı* |
| **IX sinif** | | |
| **Dinləyib-anlama** | | |
| 1.1.1. Mərhələli müraciətləri ardıcıl icra edir. | Müraciətlərin şifahi şəkildə, şəkil üzrə və bədən nümayişi ilə rollu oyunlarla mərhələli,ardıcıl yerinə yetirilməsi | Şəkillər, fiziki hərəkətlə çağırış və rollu oyun |
| 1.1.2. Dinlədiyi mətnin məzmunu hissələrə ayırır. | Dinlədiyi mətnin məzmununa görə əsas, nəticə və giriş hissələrinə görə ayrılması | Mətn, tərkib, hissə |
| **Danışma** | | |
| 2.1.1. Kiçikhəcmli nitq nümunələrini düzgün tələffüz edir | Kiçikhəcmli nitq nümunələrinin düzgün tələffüz edilməsi | Nitq nümunəsi, düzgün tələffüz |
| 2.2.1. Zaman və məkanla bağlı anlayışları adlandırır. | Şəkillərdə,filmdə gördüyü əşya və hadisələrin zamanla və məkanla əlaqələndirilərək adlandırılması | Şəkil, zaman, məkan, anlayış, adlandırma, əlaqə |
| 2.2.2. Nitq etiketlərindən mövzuya uyğun istifadə edir. | Nitq etiketləri və mövzuya uyğun dialoqun qurulması və situasiya daxilində işlədilməsi | Uyğun mövzu, situasiya, nitq etiketləri; |
| 2.2.3. Müxtəlif mövzulu dialoqlarda iştirak edir. | Müxtəlif mövzulu dialoqlarda: ailə, məktəb, ölkəmiz, fəsillər, bayramlar və s. dialoqlarda iştirak edilməsi | Ailə: anan sənə kömək edir?<br>Məktəb: hansı fənləri sevirsən?<br>Fəsillər: yazda nə üçün quşlar çoxalır? |

| | | |
|---|---|---|
| 2.2.4. Müzakirələrdə mövzu ilə bağlı fikirlərini bildirir. | Mövzu ilə bağlı fikirləri sərbəst fikirlərini öz sözləri ilə söyləyir,müzkirələrdə iştirak edir,razılaşdığı və razılaşmadığı fikirləri aydınlaşdırır | Ailə: Mən bazarlıq etməyi xoşlayıram |
| **Oxu** | | |
| 3.1.1. Söz və ifadələri morfoloji xüsusiyyətlərinə görə qruplaşdırır. | Söz və ifadələrin nitq hissələri və cümlə üzvlərinə görə qruplaşdırılması, uzlaşdırılması və düzgün təyin edilməsi | Qruplaşdırmaq, uzlaşdırmaq və təyin etmək |
| 3.1.2. Mətni uyğun ton, temp, ritm və fasilə ilə oxuyur. | Mətnin düzgün vurğu, ritm və tonla oxunulması,intonasiya qaydalarına əməl edilməsi | Qalxan və düşən ton,  intonasiya |
| 3.1.3. Oxuduğu mətnin məzmununu məntiqi ardıcıllıqla danışır. | Mətnin analiz edilməsi, əsas ideya, dəstəkverici detalların və ümumi fikirlərin müəyyən edilməsi və  məntiqi ardıcıllıqla söylənilməsi | Analiz, əsas ideya və dəstəkverici detallar |
| **Yazı** | | |
| 4.1.1. Verilmiş mövzu üzrə fikirlərini yazılı ifadə edir. | Kiçik hekayə, esse yazılması mətnin müxtəlif üsullarla yazılı təsvir edilməsi | Kişik hekayə, esse, təsvir, şərh |
| 4.1.2. Müxtəlif əşya və hadisələri yazılı təsvir edir. | Mətndəki hadisələri şəkillər üzrə təsvirlə uzlaşdırır, öz münasibətini bildirir | Şəkillər, təsvirlər və uzlaşdırmaq |
| 4.1.2. Müxtəlif əşya və hadisələri yazılı təsvir edir. | Mətndəki hadisələri şəkillər üzrə təsvirlə uzlaşdırır, öz münasibətini bildirir | Şəkillər, təsvirlər və uzlaşdırmaq |
| 4.1.3. Dəvətnamə və açıqca | Mövzuya uyğun afişa, dəvətnamə | Afişa, dəvətnamə,açıqca |

| | | |
|---|---|---|
| yazır. | və açıqcanın yazılması | |
| **X sinif** | | |
| **Dinləyib-anlama** | | |
| 1.1.1. Çoxmərhələli müraciətləri ardıcıl icra edir. | Məktəb və məişətlə bağlı müraciətlərin edilməsi (Sənin adın nədir? Bu nədir? De, əyləş, dur, təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitab, dəftər aç, bağla,cümlə qur,sözləri tap,qruplaşdır) | Məktəb, məişət, müraciət, de, əyləş, dur, təkrar et, bax, qulaq as, lövhəyə gəl, kitab, dəftər, soyad, bu |
| 1.1.2. Dinlədiyi mətnin planını tutur. | Giriş,əsas hissə,nəticə,(məntiqlə planın tutulması) | Plan,məntiq,nəticə,əsas hissə |
| **Danışma** | | |
| 2.1.1. Müxtəlif nitq nümunələrini düzgün tələffüz edir. | Öyrənilmiş nitq nümunələrini yeni səs, səs birləşmələri və sözlər, cümlələrin düzgün tələffüz edilməsi | Səs, səs birləşməsi, söz, tələffüz |
| 2.2.1. Müxtəlif məzmunlu şəkillərdə əks olunan əşya, hadisə və situasiyaları adlandırır. | Öyrənilən yeni söz və cümlələr əsasında müxtəlif məzmunlu şəkillərin, əşya, hadisə və situasiyaların (mənzil, yaşadığı yer) adlandırılması | Şəkil, məzmun, hadisə, əşya, situasiya, adlandırma |
| 2.2.2.Əşya, hadisə və situasiyaların əlamətlərini təsvir edir. | Öyrənilən yeni sözlər əsasında əşyaların əlamətlərinin (keyfiyyəti, görünüşü) sadalanması, məkanın göstərilməsi | Əşya, əlamət, keyfiyyət, görünüş, sadalama, məkan |
| 2.2.3. Mövzu ilə bağlı fikirlərini | Mövzu ilə bağlı sərbəst fikirlərini | Ailə: Mən bazarlıq etməyi xoşlayıram |

| | | |
|---|---|---|
| müxtəlif formada ifadə edir. | öz sözləri ilə müxtəlif formada ifadə edilməsi | Bazarlıq etmək mənim xoşuma gəlir. |
| **Oxu** | | |
| 3.1.1. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır. | Əsas fikrin hansı mövzuya aid olması və real həyatla bağlı olmasını seçilib qruplaşdırılması | Əsas mövzu, real həyatla bağlılıq |
| 3.1.2. Mətni məzmununa uyğun intonasiya ilə oxuyur. | Mətnlərin məzmununa uyğun intonasiya ilə oxunması, məzmunun başa düşüldüyünü nümayiş etdirmək üçün mətnə müxtəlif sualların verilməsi, mətnin məzmunu haqqında fikrin bildirilməsi və.s | Mətn, oxu, sual, intonasiya, məzmun |
| 3.1.3. Oxuduğu mətnin məzmununu ümumiləşdirərək şərh edir. | Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirmə, təhlil və əsaslandırma | Fakt, hadisə, real həyat, şərh |
| **Yazı** | | |
| 4.1.1. Dinlədiyi mətnin məzmununu ardıcıl yazır. | Mətnin məzmununu dinləyərək qeydlər aparır, planını tutur və ardıcıl yazır | Qeyd, plan tutma, ardıcıllıq |
| 4.1.2. Məlumat xarakterli mətnlər yazır. | Gördüyü işlər haqqında, ətrafdakı hadisələr haqqında məlumat yazması. | Iş, hadisə, məlumat |
| 4.1.3. Tərcümeyi hal və və ərizə yazır. | Özü haqqında qısahəcmli tərcümeyi halın yazılması, müxtəlif məqsədlərlə ərizənin yazılması | Ərizə, tərcümeyi-hal |
| **XI sinif** | | |
| **Dinləyib-anlama** | | |

| | | |
|---|---|---|
| 1.1.1. Müraciətdə ifadə olunan fikrə münasibət bildirir. | Mövzu ilə bağlı verilən sualın cavablandırılması | Sadə müraciət, müxtəlif fikir, şərh |
| 1.1.2. Dinlədiyi mətnin məzmununu şərh edir. | CD-də və ya müəllim tərəfindən səsləndirilən mətnin məzmunun açıqlanması | CD, mətn, məzmun, şərh |
| **Danışma** | | |
| 2.1.1. Nitqində tələffüz qaydalarına yiyələndiyini nümayiş etdirir. | Mövzu ilə bağlı fikir bildirərkən tələffüz qaydalarına düzgün riayət olunması | Düzgün tələffüz qaydaları, hərf birləşmələri, tələffüzdə axıcılıq |
| 2.2.1. Müxtəlif süjetli şəkillər üzrə ünsiyyət qurur. | Mövzu ilə bağlı verilən şəkillər üzrə danışma, öz yoldaşları ilə dialoqada iştirak etmə, ünsiyyət qurma | Müxtəlif şəkillər, dialoq, ünsiyyət |
| 2.2.2. Müxtəlif situasiyalara öz münasibətini bildirir. | Müxtəlif hadisələrə situasiya uyğun öz münasibətin bildirilməsi | Müxtəlif situasiyalar, fikir, münasibət, "Mən olsaydım belə edərdim ... " |
| 2.2.3. Müxtəlif mövzularda müzakirələr (təbiət, cəmiyyət, ailə, məktəb) aparır. | Müxtəlif mövzularda yeni sözlərdən istifadə edərək fikir bildirmə, müzakirələrdə iştirak etmə | Müxtəlif mövzu, müzakirə, müxtəlif fikirlər |
| 2.2.4. Müxtəlif mövzulu müzakirələrdə iştirak edir. | Öyrəndiyi söz, söz birləşmələrindən istifadə edərək müxtəlif mövzulu müzakirələrdə iştirak edilməsi, debatlarda iştirak, öz fikrini əsaslnadırması | Müşahidə, müzakirə, debat, əsaslandırma, fikir bildirmə |
| **Oxu** | | |
| 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə | Mətnin şüurlu oxunması, yeni söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərin göstərilməsi, | Söz, ifadə, şüurlu oxu, qrammatik-semantik xüsusiyyətlər, fərqləndirmə |

| | | |
|---|---|---|
| fərqləndirir. | onların biri-birindən müxtəlif xüsusiyyətlərinə görə fərqləndirilməsi | |
| 3.1.2. Mətndəki müxtəlif konstruksiyalı cümlələri düzgün oxuyur. | Mətnin şüurlu oxunması, mətndəki müxtəlif konstruksiyalı cümlələrin müəyyən ton, templə düzgün oxunması | Şüurlu oxu, müxtəlif konstruksiyalı cümlələr |
| 3.1.3. Oxuduğu mətnin məzmununa münasibətini bildirir. | Mətnin şüurlu oxunması, hər cümlədə faktların, əsas ideyasının düzgün təyin olunması, öyrənilmiş mətnin məzmununa öz münasibətinin bildirilməsi | Şüurlu oxu, fakt və hadisələr, əsas ideya, məzmun, münasibət, fikir |
| **Yazı** | | |
| 4.1.1. Fikirlərini müxtəlif formalarda (inşa, esse, hekayə) ifadə edir. | Müxtəlif mövzuda inşaların, esselərin, hekayələrin yazılması | Müxtəlif mövzu, inşa, esse, hekayə |
| 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir. | Müşahidə etdiyi, oxuduğu fakt və hadisələr haqqında məlumat xarakterli mətnlərin yazılması, yazıya öz fikirlərinin əlavə olunması | Fakt, hadisə, müşahidə, mətn, məlumat |
| 4.1.3. Müxtəlif anket formaları yazır. | Müxtəlif situasiyalar ( layihə, tədqiqat, sorğu vərəqləri )üçün anket formalarının yazılması | Layihə, tədqiqat, sorğu vərəqləri, anket forması |

# Resurslar

1. Kartlar
2. Mulyaj
3. Fiqur
4. Plakat
5. İşçi vərəqləri
6. İKT materialları
7. Kompyuter
8. Proyektor
9. Müxtəlif məzmunlu şəkillər
10. Marker
11. Flipçat
12. Ensiklopediyalar
13. 5-11 ci siniflər üzrə Xarici dil dərslikləri
14. MIMIO lövhə

# Tezaurus

***Təlimin məzmunu*** **-** şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmuudur.

***Təlim nəticəsi*** **-** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutlan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

***Məzmun xətti*** **-** fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmununun zəruri hissəsidir.

***Məzmun standartı*** **-** dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbdir.

***Qiymətləndirmə standartı*** - təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

***Təlim strategiyası*** - təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

***Kurikulum*** - təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

***Dərslik*** - dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

**İ*nteqrasiya*** **-** müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

***Milli kurikulum*** - ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

***Fənn kurikulumu*** **-** fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual sənəddir.

***Pedaqoji innovasiya*** - təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə cevrilir.

***Nəticəyönümlülük*** - yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərindən biridir. Bu pirinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

***Taksonomiya*** - yanan sözdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitgi orqanizmlərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdə psixologiyada istifadə olunmağa başlanmışdır.

***Şəxsiyyətyönümlülük*** – Milli Kurikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiyyətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir. Şəxsiyyətyönümlü təhsilin keyfiyyət göstəricisi sadəcə bilik və ya bacarıqlar deyil, milli səviyyədə müəyyən olunmuş ümumi nəticələrə uyğun səviyyənin (kompetensiya, keyfiyyət və ya mədəniyyət göstəricilərinə uyğun səviyyənin) əldə edilməsidir.

***Təhsildə qiymətləndirmə sistemi*** - beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsini və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

***Fəal (interaktiv) təlim*** - şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

***Mulyaj*** - mumdan, gipsdən və s. -dən modeltökmə.

***İdrak fəaliyyəti-*** idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, sintez etmək və

dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil edir. Ona görə də "hafizə məktəbi"ndən fərqli olaraq "təfəkkür məktəbi"ndə təlim stanadartları hazırlanarkən onlar əsas götürülür.

# İstifadə olunmuş ədəbiyyat


**Azərbaycan dilində**

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006.
2. Ə. Abbasov "Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri "Kurikulum" elmi-metodik jurnal, №1,yanvar-mart 2008.
3. Hüquqlara aparan yol. Metodik vəsait.Norveç qaçqınlar şurası, 2004.
4. Xarici dil üzrə fənn kurikulumu. Bakı, 2007.
5. X. Qədimova. İnteraktiv təlim metodları. Bakı, 2005.
6. Intqrativ kurrikulum: Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait .(müəllif qrupu) Baki, 2005
7. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait. Norveç qaçqınlar şurası, 2003.
8. Kurikulum jurnalı, Azərbaycan müəllimi və Təhsil Problemləri qəzetinin bütün nömrələri.
9. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. Müəllimlər üçün vəsait . Baki, 2005.
10. Z.Veysova. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait, 2007.

**Fransız dilində**

1. Christian Puren, Paola Bertocchini, Edvige Costanzo « Se former en didactique des langues », Paris, 1980.
2. Conseil de la Cooperation Culturelle « Apprendre, enseigner, évaluer », Strasbourg, 2000.
3. Christine Tagliante « La classe de langue », Paris, 2001
4. La maîtrise de la langue à l'école, Paris, 1992.
5. La maîtrise de la langue à l'école, Paris 1992
6. Le Curriculum d Ontario, Kanada, 2000.
7. Vivane və Gilbert de Landsheere-in trilogiyası , Paris 1999.

8. Gilbert Niquet ; Enseigner le français pour qui ? Comment? Paris, 1987.
9. Jean Peytard, Sophie Moirand ; Discours et enseignement du français, Paris 1992.
10. Sophie Moirand « Enseigner à communiquer en langue étrangère », Paris, 1982 .

**İngilis dilində**

1. Borich,G.D. Effective teaching methods. Upper Saddle River, 1996.
2. Devine, Thomas G. Teaching studies skills. Boston, 1987.
3. English As a Second Language and English Literacy Development. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario. 1999.
4. English. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario. 2000.
5. English language, Arts Learning standards and Core curriculum. Pre K-Grade 5, 2005.
6. Health and Physical Education. The Ontario Curriculum. Grades 11-12. Ministry of Education of Ontario, 2000.
7. John S.Kendall and Robert J.Marzano "Content knowledge. A compendium of standards and benchmarks for K-12 Education" , 1996.
8. John U.Michaelis, Jesus Garcia . Social studies for children.A guied to basic instruction, 1996.
9. Language. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2006.
10. Mary E. Haas and Margaret A. Laughlin. "Meeting the standards Readings for K-6 Educators" .
11. Marzano, Robert.J Reading Diagnosis and İnstruction, 1987.
12. Mathematics. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2005.
13. Montana office of public Instruction.(2000)Montana standards for social studies History –social science framework for California Public schools .Edition with Criteria for Instructional Materials. Sacramento, 2005.

14. Native Languages. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2001.
15. NCSS (1994) Expectations of excellence: Curriculum standards for social studies(Bulletin 89) Washington, DC.
16. Open Society Institute-Assistance Foundation, Workshops in Learner Centered EFL Methodology: Participant Handouts and Suggestions for Trainers, Kitty Johnson, 2006.
17. Peter Morterella,Candy M.Beal,Chearyl Mason Bolick." Teaching social studies in middle and secondry schools" Ohio, 2005.
18. Reading/Language arts framework for California Public schools .Kindergarten Through Grade Twelve .Published by the California Department of Education, 1999.
19. Science and Technology. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 1998.
20. Stephanie Wasta "Teaching social studies", 2006.
21. The arts. The Ontario Curriculum –Exemplars Grades 2,5 and 7. Ministry of Education of Ontario, 2004.
22. The Practice of English Language Teaching, Longman handbooks for language teaching, London and New York, 1995.
23. Virginia/USA Government Program of studies. Fairfax County Public Schools, 1998.
24. Wiseman Donna. L Reading Instruction: A literature Based Approach /Englewood Cliffs,1991.

**Rus dilində**

1. Государственный образовательный стандарт по русскому языку для школ с русским языком обучения // Русский язык и литература в Азербайджане, 2003, №3.
2. Материалы по разработке национального стандарта среднего общего образования Республики Казахстан. Алматы, 2004.

3. Программа по русскому языку для V-XI классов школ с азербайджанским языком обучения (проект) // Русский язык и литература в Азербайджане, 2004, № 1.
4. Национальная Концепция Общеобразования Национальный Куррикулум в Азербайджанской Республике, Баку, 2006.
5. Предметные куррикулумы для I-IV классов общеобразовательных школ. «Образование», Баку, 2008.
6. А.Аббасов «Характерные особенности новых куррикулумов», «Куррикулум» научно-методический журнал, №1, январь-март 2008.
7. Бабаев И.А., Алхасов Я.К. Особенности куррикулума по родному языку для школ с русским языком обучения // Куррикулум, № 2, Баку, 2008.